QARABAĞ AZƏRBAYCANDIR!

# Səs

№ 008 (6691) 17 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

## 2023-cü il: Böyük Qayıdışın sürətli inkişaf mərhələsi!



8

## Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri: münasibətlərdə yeni səhifə!



2

*PREZİDENT İLHAM ƏLİYEV: "Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi"*

# Stəkanda fırtına -

## Qarabağ ermənilərinin xuntası necə məhv olur?

**Son bir neçə gündür ki, Qarabağ separatçıları arasında kəskin qarşıdurmalar müşahidə olunur. Daha dəqiq desək, Qarabağ ermənilərinin xunta başçısı Araik Arutyunyanla "dövlət naziri", bir çoxları tərəfindən dələduz kimi tanınan Ruben Vardanyan arasında yaşanan qalmaqallar özünün pik həddinə çatıb. Ziddiyyətlərə səbəb olan ilk məsələ Vardanyanın Arutyunyaınn təyin etdiyi şəxsləri "vəzifələrindən" istefaya göndərməsidir. Digər səbəb isə Vardanyanın açıq-aşkar Azərbaycan hakimiyyətinə...**



13

### 4-cü sosial islahat paketi və 5 illik strategiya nə vəd edir?



10

### "Biz Qərbi Azərbaycanla bağlı bizim olan hər şeyə sahib çıxmaqda qərarlıyıq və sahib çıxacağıq"



6

### "Prezident İlham Əliyevin Dayanıqlılıq Həftəsinə dəvət olunması Azərbaycan Liderinə böyük hörmətin təzahürüdür"



4

## Rusiyalı ekspert: Moskvanın Ermənistana qarşı səbri tükənir



15

## Bakıda avtomobildən "Kalaşnikov" götürülüb



16

# Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri: münasibətlərdə yeni səhifə!

*PREZİDENT İLHAM ƏLİYEV: "Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi"*

***Bəli, bu gün Azərbaycan regional və qlobal geosiyasi aktorlarla balanslaşdırılmış siyasət yürüdür. Şuşa və Moskva bəyannamələri sayəsində Türkiyə və Rusiya kimi nəhəng ölkələrlə müttəfiqlik münasibətlərinin qurulması ilə yanaşı, Avropa İttifaqının da ölkəmizə diqqəti artmaqdadır. Enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqı ilə strateji xarakter alan münasibətlər hazırda keyfiyyətcə yeni müstəviyə qalxıb. Elə yanvarın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri iki ölkə arasındakı münasibətlərdə yeni səhifənin açılmasının göstəricisidir.***

ƏHMƏD ƏBDO TƏRABİK:

**"Prezident İlham Əliyev Azərbaycanın ərəb dünyası ilə əlaqələrində yeni mərhələnin əsasını qoydu"**

"Prezident İlham Əliyevin Əlcəzairdə təşkil olunan Ərəb Sammitində iştirakı Azərbaycanın ərəb dünyası ilə əlaqələrində keyfiyyətcə daha yüksək və yeni mərhələnin əsasını qoydu. Azərbaycanın dövlət başçısının ərəb ölkələrinin liderləri tərəfindən bu mötəbər tədbirə Fəxri qonaq qismində dəvət olunması onun Yaxın Şərqdə yüksək nüfuzunun təzahürüdür". Bu fikirləri misirli politoloq, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə tədqiqatçı Əhməd Əbdo Tərabik söyləyib. O bildirib ki, Qoşulmama Hərəkatının hazırkı rəhbəri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 1-də Əlcəzairdə keçirilən Ərəb Liqası Dövlətlərinin 31-ci Sammitində iştirakı Cənubi Qafqaz, Yaxın Şərq regionlarında və ümumilikdə dünyada sabitliyin və sülhün əldə edilməsi istiqamətində beynəlxalq ictimaiyyətə çağırış ilə yadda qaldı. O, həmçinin Azərbaycan ilə ərəb ölkələri arasında tarixi əlaqələrə yüksək qiymət verdi, gündən-günə inkişaf edən əməkdaşlığın yeni mərhələsinin yol xəritəsini təqdim etdi. Azərbaycan Prezidentinin Sam-mitdə dərin məzmunlu çıxışından politoloq vurğulayıb ki, Prezident İlham Əliyev çıxışında Azərbaycanın ərəb ölkələri ilə tərəfdaşlığı gücləndirmək, o cümlədən Ərəb Dövlətləri Liqası ilə əlaqələri möhkəmləndirmək və bu təşkilata üzv ölkələrlə həmrəylik prinsiplərini təşviq etmək arzusunda olduğunu bildirdi. Dövlət başçısı bu kontekstdə Azərbaycanın Əlcəzair kimi işğaldan əziyyət çəkdiyini və bütün bu işğal illərində ərəb qardaşlarından, İslam Əməkdaşlıq Təşkilatından dəstək aldığını qeyd etdi, həmçinin bu məsələdə həmrəylik nümayiş etdirən ərəb ölkələrinə və beynəlxalq qurumlara təşəkkürünü bildirdi. Ə.Tərabik, həmçinin onu da bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Əlcəzairə səfəri və Ərəb Sammitində iştirakı Azərbaycan ilə ərəb ölkələri arasında müxtəlif sahələrdə daha möhkəm dostluq və əməkdaşlıq körpüləri qurmaq üçün geniş qapılar açır. Azərbaycanın dövlət başçısı beynəlxalq ictimaiyyətə çox vacib müraciət etdi, sülhün və sabitliyin təmin edilməsi, işğala məruz qalan ölkələrə qarşı haqsızlığın aradan qaldırılması, böyük dövlətlərin Azərbaycanın və ərəb ölkələrinin problemlərinə münasibətdə ikili standartlardan imtina etməsinin zəruriliyini vurğuladı. O bildirdi ki, bu məsələlərdə rəsmi Bakının və ərəb dövlətlərinin maraqları üst-üstə düşür. Bəli, bu gün sülhün və sabitliyin təmin edilməsi, işğala məruz qalan ölkələrə qarşı haqsızlığın aradan qaldırılması, böyük dövlətlərin Azərbaycanın və Ərəb dövlətlərinin maraqları üst-üstə düşür.







PREZİDENT İLHAM ƏLİYEV:

**"Birləşmiş Ərəb Əmirlikləri dünyanın ən sabit və inkişaf etmiş ölkələrindən birinə çevrilib"**

"Bu mühüm toplantıda iştirak etmək üçün məni dəvət etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Bu auditoriya qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Dünən bizim cənab Prezidentlə əla görüşümüz oldu. Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi". Bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev söyləyib. Qazandığı böyük nailiyyətlər və sürətli inkişaf münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini və xalqını təbrik edən dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirlikləri dünyanın ən sabit, inkişaf etmiş və uğurlu ölkələrindən birinə çevrildiyini bildirərək deyib: "Biz Sizin Azərbaycandakı qardaşlarınız olaraq, gördüyünüz işlərdən çox fərəhlənirik". Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı söyləyib ki, Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik, enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, neft məhsulları, təbii qaz, neft-kimya məhsulları və elektrik enerjisi ixrac edir. Dövlətimizin başçısı bildirib: "Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu, onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, onun sayəsində biz ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

**TƏBİİ QAZ İXRACIMIZ ARTMAQDA DAVAM EDƏCƏK**

"Cəmi iki il əvvəl Azərbaycan Cənub Qaz Dəhlizi meqaenerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdən çoxdur",-deyən dövlət başçısı onu da vurğulayıb ki, təbii qaz ixracımız artır - ötən il 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq: "Bu rəqəm artmaqda davam edəcək. Buna görə mən bir daha söyləmək istərdim ki, Azərbaycanın bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi planlarımız Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil. Belə ki, biz həmin işləri artıq söylədiyim başqa səbəblərə görə aparırıq".

**XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA 157 QİQAVATLIQ KÜLƏK ENERJİSİ İMKANLARI MÖVCUDDUR**

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı bildirib ki, quruda 27 qiqavatlıq, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Ümumilikdə 200 qiqavata yaxın potensialın olduğunu söyləyən dövlətimizin başçısı qeyd edib ki, bizə kifayət qədər ixrac marşrutları lazımdır. Təbii ki, biz bütün həmin layihələri mərhələli şəkildə icra edirik.

**"MASDAR" İLƏ ƏMƏKDAŞLIQ AZƏRBAYCANI ÇOX MÜHÜM YAŞIL ENERJİ MƏNBƏYİNƏ ÇEVİRƏCƏK**

"Dünən "Masdar" ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 4 qiqavatlıq külək və günəş enerjisinin istehsalına dair razılaşma imzaladılar. Bu, hələ qısamüddətli layihədir. Ortamüddətli layihələr gücləri 10 qiqavata qədər artıracaq".

Ardı Səh. 3

# Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri: münasibətlərdə yeni səhifə!









Əvvəli Səh. 2

Bunu Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bildirib.Dövlətimizin başçısı qeyd edib ki, bu, tamamilə icraolunandır. Bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində, "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı çox mühüm yaşıl enerji mənbəyinə çevirəcək: "Bütövlükdə Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər 22 qiqavata qədər külək və günəş enerjisi istehsal etmək imkanı yaradacaq".

## AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİ ÇOX MÜSBƏTDİR

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, ötən ay - dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair saziş imzaladılar. Bu saziş Avropa Komissiyası Prezidentinin şahidliyi ilə imzalanıb. Planımız Azərbaycandan 4 qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq kabeli çəkməkdir. Dövlətimizin başçısı qeyd edib ki, lakin bu, kifayət etməyə bilər. Burada söhbət artıq razılaşdırılmış həcmlərdən gedir. Lakin planlarımız daha genişdir: "Azərbaycanda investisiya mühiti çox müsbətdir. Biz neft və qaz sektoruna böyük sərmayələr cəlb etmişik. İndi isə hədəfimiz bərpaolunan enerjidir. Başqa sözlə, planlarımız böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik".

Qeyd edək ki, Əbu-Dabi Dayanıqlılıq Həftəsi dünyanın dayanıqlı inkişafının sürətləndirilməsini hədəfləyən beynəlxalq platformadır. Dayanıqlılıq Həftəsi bu məqsədə çatmaq üçün öz proqramını üç prinsip - qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya üzrə həyata keçirir. 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində dünyanın 150 ölkəsindən 30 minədək nümayəndə iştirak edir. Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə dəvət olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin müəllifinə və təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən, yaşıl enerjinin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın 200 qiqavata yaxın bərpaolunan enerji potensialı ölkəmizi dünyanın diqqət mərkəzinə çevirib. Bu zəngin potensialdan istifadə olunmasına artıq başlanılıb. Ötən ilin yanvarında 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının, martda isə 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməli qoyuldu. "Qaradağ" Günəş Elektrik Stansiyası Birləşmiş Ərəb Əmirliklərinin bu sahədə tanınmış "Masdar" şirkəti tərəfindən inşa edilir. Prezident İlham Əliyevin yürütdüyü enerji siyasətinin əsas istiqamətlərindən biri də işğaldan azad olunan ərazilərin potensialının qiymətləndirilməsi və istifadə olunmasıdır. Yaxın aylarda Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi planlaşdırılır. Ötən il dekabrın 17-də Buxarestdə yaşıl enerji ilə bağlı strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması da bu istiqamətdə atılan mühüm addımlardan biri oldu. Bu layihə ilə Azərbaycanın bu sahədə qarşıya qoyduğu əsas hədəf ixrac həcminin genişləndirilməsidir. Beləliklə, bərpaolunan enerji sahəsində zəngin potensiala sahib olan Azərbaycan bu istiqamətdə də reallaşdırdığı layihələrlə enerji təhlükəsizliyinin təmin olunmasında mühüm aktor kimi öz fəaliyyətini durmadan genişləndirir.

Bir sözlə, Prezident İlham Əliyevin söylədiyi kimi: "Bu görüş Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi".

**RƏFİQƏ KAMALQIZI**

# Küveyt portalı: "Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı davam edir"

Küveyt və Ərəb Elektron Media Birliklərinin İdarə Heyətinin sədri Feysəl Xəlifə Əl-Səvvağın "Dasman news" xəbər portalında azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası haqqında məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan silahlı qüvvələrinin hələ də Azərbaycan ərazilərini tərk etmədiyi vurğulanıb. Müəllif yazıb: "Ermənistan 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarına əməl etmir. Bu sənədə zidd olaraq, erməni silahlı qüvvələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb. Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunur, bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına



maneçilik törədilir. Bütün bunlarla yanaşı, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı davam edir. Bu hallara etiraz əlaməti olaraq, dekabrın 12-dən ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi səbəbindən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloqların etiraz aksiyası təşkil olunub. Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan qanunvericiliyi əsasında həyata keçirilməlidir".

Məqalədə qeyd olunub ki, Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır. Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri sadəcə talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısını almağa çalışır. Rusiya sülhməramlılarına məxsus təminat avtomobilləri Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edir. Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Bir daha aydın olur ki, bu, bir sülh aksiyasıdır. Ermənistan isə hər zaman olduğu kimi, aksiya ilə bağlı dünyaya dezinformasiya yayır.

Müəllif sonda vurğulayıb: "Ermənistan xarici işlər nazirinin Moskvada rusiyalı və azərbaycanlı həmkarları ilə növbəti müzakirələrdən imtina etməsi 10 noyabr Bəyanatının müddəalarına ziddir. Bu, Ermənistan tərəfindən regional sülhün və təhlükəsizliyin bərqərar olunması baxımından atılmış çox yanlış bir addımdır. Ermənistanın əksinə olaraq, qalib ölkə olan Azərbaycan regionda dayanıqlı sülhün və əməkdaşlığın bərpa olunmasına çalışır".

**Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir. Bəs görək şəhər sakinləri bu sərəncamı necə dəyərləndirir? SİA mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu keçirib.**



# "Prezident həmişə xalqının qayğısına qalıb, bundan sonra da qalacağına inanıram"

SORĞU

**Şəhər sakini Gülşən Əliyeva:** "Düşünürəm ki, Cənab Prezidentin imzaladığı bu sərəncam əhalinin rifahının daha da yaxşılaşmasına təsir göstərəcək. Qiymətlərin artmasından sonra belə bir qərar ölkəmiz üçün vacib idi. Hər kəsin gözlədiyi bir şey idi. Ona görə də bu, bütün vətəndaşlar kimi mənim üçün sevindirici hal oldu".



**Şəhər sakini Rəşid Abdullayev:** "İlk öncə cənab İlham Əliyevə təşəkkür edirik, bu qədər siyasi məsələlər, xarici səfərlər arasında xalqını heç vaxt unutmur. Bu bizim üçün əvəzolunmaz bir şeydir. Bir çox çətinliklər yaşamağımıza baxmayaraq, hər zaman Prezidentin dəstəyini, köməyini, düşüncəsini hiss etmişik. İnanıram ki, axıra kimi belə davam edəcək".



**Şəhər sakini Nərgiz Ağazadə:** "Təbii ki, hər kəs kimi mən də minimum əməkhaqqı və pensiyaların artmasına çox sevindim. Buna hər kəsin ehtiyacı var idi. Özümüzü misal göstərərək deyə bilərəm ki, bugünkü gündə nəinki Azərbaycan, bütün dünyada əksiksiz yaşamaq çox çətindir. İnsanlar öz ehtiyaclarını güclə qarşılayırlar. Amma bu cür qərarlar xalqın vəziyyətinin yaxşılaşmasına kömək edəcək".



**Şəhər sakini Elmar Bədəliyev:** "Belə sərəncamların daimi olmasını və millətimizin hər zaman xoş gün görməsini, yaxşı xəbərlər eşitməsini arzulayıram. Prezident həmişə xalqının qayğısına qalıb, bundan sonra da qalacağına inanıram".



**Şəhər sakini Cəlil Cəlilov:** "Bu elə bir şeydir ki, gəncdən qocaya kimi hər kəsi sevindirir. İndiki dövrdə pula çox ehtiyac yaranıb. Eyni zamanda, bu insanları ruhlandırır. Əməkhaqqı çox olanda işçi daha da həvəslənir. Ölkə başçımızın bu qərarı ilə biz də var-gücümüzlə çalışıb, peşəmizi lazım olduğu kimi yerinə yetirsək yaxşı olar".



*Ləman Əlizadə*

# "Prezident İlham Əliyevin Dayanıqlılıq Həftəsinə dəvət olunması Azərbaycan Liderinə böyük hörmətin təzahürüdür"



"Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri, keçirdiyi görüşlər və Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimindəki çıxışı mühüm əhəmiyyət daşıyır. İlk növbədə, onu qeyd etmək lazımdır ki, mötəbər tədbirə Prezident İlham Əliyevin dəvət edilməsi Azərbaycana və onun liderinə olan böyük inamın, etimadın və hörmətin təzahürüdür." Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Trend" Beynəlxalq İnformasiya Agentliyinin baş direktorunun müavini, siyasi şərhçi Sahil Kərimli bildirib.

Onun sözlərinə görə, son illər Azərbaycanla BƏƏ arasında hərtərəfli əlaqələrin genişlənməsi, xüsusilə də nəhəng enerji layihələrinin reallaşdırılması münasibətləri yeni mərhələyə çıxarıb. Prezident İlham Əliyevin BƏƏ-yə səfəri və keçirdiyi görüşlər heç şübhəsiz ki, bu əlaqələri daha da zirvəyə qaldıracaq, inkişaf etdirəcək.

Ölkələrimiz arasında qarşılıqlı investisiya yatırımlarının, ticari əlaqələrin genişlənməsinin həm iqtisadi, həm də siyasi baxımdan tərəflərə yeni dividendlər qazandırdığını diqqətə çatdıran siyasi şərhçi deyib: "Azərbaycan və BƏƏ bütün beynəlxalq platformalarda bir-birinin maraqlarını müdafiə edir, ortaq mövqedən çıxış edirlər. Bu da çox önəmli amildir. Görüş zamanı Azərbaycan və BƏƏ prezidentlərinin qarşılıqlı hörmət və ehtirama əsaslanan bəyanatları, əlbəttə ki, məmnunluq yaradır. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin BƏƏ-yə səfəri iqtisadi sahədə əməkdaşlığın dinamikasını artıracaq. Burada əsas prioritet istiqamət alternativ enerji mənbələri üzərində iş və yaşıl enerji layihələrinin icrasıdır". Onun sözlərinə görə, BƏƏ-nin nüfuzlu "Masdar" şirkəti ilə müştərək layihələrin perspektivi böyükdür. Bu layihələrlə Azərbaycan dünya enerji bazarında öz rolunu və yerini daha da möhkəmləndirəcək, böyük gəlirlər əldə edəcək.

"Hazırda Avropada enerjiyə yaranan ciddi tələbat fonunda Azərbaycan beynəlxalq layihələrinin əhatəsini genişləndirir, resurslarını artırır və daha da önə çıxır. Bu isə ölkəmizin beynəlxalq nüfuzunu artırır, dünyada söz sahibinə çevirir. BƏƏ ilə dərinləşən hərtərəfli əlaqələr də gələcəyə hesablanıb və bu baxımdan mühüm əhəmiyyət kəsb edir", - deyən Sahil Kərimli fikirlərini tamamlayıb.

# Minadan təmizlənən ərazilərin sahəsi AÇIQLANDI

Ötən həftə Qarabağ və Şərqi Zəngəzurda 0,0955 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. SİA xəbər verir ki, bu barədə Minatəmizləmə Agentliyindən (ANAMA) məlumat verilib.

Bildirilib ki, yanvarın 9-dan 14-dək Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı 1 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Nəticədə 0,0955 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# "Prezidentin həyata keçirdiyi siyasətin əsasını əhalinin rifahının yaxşılaşdırılması təşkil edir"

"Cənab Prezidentin həyata keçirdiyi müdrik siyasətin ana xəttini əhalinin sosial rifahının daha da yaxşılaşdırılması təşkil edir və bunun nəticəsidir ki, ölkəmizdə sosial islahatlar ardıcıl xarakter alıb. Son beş ildə Azərbaycanda ənənəvi xarakter almış sosial paketlər icra olunur və 2023-cü ildən qüvvəyə minən 4-cü sosial paketlə sosial tərəqqi özünün yeni mərhələsinə daxil olacaq". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Hüseynov deyib.

Onun sözlərinə görə, yeni sosial paketə əsasən, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2023-cü il yanvarın 1-dən orta hesabla 15 faiz artırıb: "Belə ki, Səhiyyə, Təhsil, Mədəniyyət, Kənd Təsərrüfatı, Gənclər və İdman Nazirliyi, Müdafiə Sənayesi, Maliyyə Nazirliklərinin bir sıra təşkilatlarının, Milli Elmlər Akademiyasının, Heydər Əliyev Mərkəzinin, Milli Ensiklopediyanın, dövlət arxivləri və onların filiallarının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Dövlət Turizm Agentliyinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu əməkdaşlarının vəzifə maaşlarının artırılması təmin edilib".



Millət vəkili qeyd edib ki, cənab Prezidentin yanvarın 13-də imzaladığı yeni fərman və sərəncamlara əsasən, ölkədə müavinətlərin, təqaüdlərin və bir sıra sosial ödənişlərin həcmi əhəmiyyətli dərəcədə artırılıb: "Belə ki, əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi tədbirlərinə uyğun olaraq, əlilliyi olan şəxslərə verilən müavinətlərin, I dərəcə əlilliyi olanlara və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdünün gələn ilin əvvəlindən artırılıb. "2023-cü ilin 1 yanvarından Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 600 manata çatdırılıb. Həmçinin əlilliyi olan şəxslərin yönələn müavinətlər və təqaüdlər artırılıb.

Prezidentin aylıq təqaüdü müharibə, 20 Yanvar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər üçün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manata çatdırılmaqla bərabər, digər tərəfdən bütün kateqoriyalara aid əlilliyi olan şəxslər üçün müavinət də orqanizmin funksiyalarının 81-100 faiz, 61-80 faiz və 31-60 faiz pozulmasına görə müvafiq olaraq 270 manata, 220 manata və 150 manata çatdırılıb. Eləcə də Prezidentin fərdi təqaüdü 1500, ailə başçısını itirməyə görə müavinətin 120, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşağa görə müavinətin 100, beşdən çox uşağı olan qadınlara hər uşağa görə müavinətin 105, "Xalq" fəxri adına görə təqaüdün 200, "Əməkdar" fəxri adına görə isə 150 manata çatdırılıb. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 2023-cü il yanvarın 1-dən 275 manat, elmlər doktoru hazırlığı üzrə doktorantların müavinəti 400 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantların müavinəti 240 manat müəyyən edilib. Həmçinin, tələbələrin təqüdləri 20 faiz artırılıb".

A.Hüseynov bildirib ki, bir müddət əvvəl minimum əməkhaqqı və minimum pensiyaların artırılması 800 min nəfəri əhatə etmişdi, yanvarın 13-də imzalanmış sərəncamlarla isə həssas əhali qruplarından olan insanlara yönələn sosial ödənişlərin, o cümlədən 810 min insanın müavinət və təqaüdləri artırıldı: "Digər sosial artımları, ünvanlı sosial dövlət yardımını da əlavə etsək bu rəqəm təxminən 2 milyon nəfəri əhatə etmiş olacaq. Beləliklə, 4 islahat paketi üzrə əlavə olaraq büdcədən 750 milyon manat əlavə vəsait ayrılacaqdır. Ümumilikdə, büdcədə xərclərin təxminən 24 faizi əməyin ödənilməsinə yönəldiləcək və büdcə xərclərinin 49 faizi sosialyönümlü xərclər təşkil edəcəkdir".

*Ləman Əlizadə*

# Regionda vəziyyət - LİDERLİK MÜƏYYƏNLƏŞİB

**Artıq keçmişdə qalan Qarabağ məsələsi ilə bağlı məqamların sonuna yaxınlaşdıqca, Qafqazda yeni oyunlara əl atanlar aktivləşməyə başlayıb. Türkiyə-Azərbaycan tandemi bölgədə həlledici olduğu halda bir çox qüvvələrin kürkünə birə düşməyə başlayıb və istər İran, istər Rusiya, istərsə də Fransa ən azından regionda mövcudluğunu qorumaq üçün bütün vasitələrə əl atır və mümkün bütün qüvvələrini, imkanlarını səfərbər edir. Buna baxmayaraq, artıq regionda söz sahibi bəllidir və kənar qüvvələrin səyləri əbəs yerədir, çünki öz torpaqlarına, öz hüquqlarına sahib çıxan Azərbaycan buna imkan verməyəcək.**




Bəllidir ki, İran bu zamana qədər özünə rəqib hesab etdiyi Türkiyənin və bir də Azərbaycanın regionda iqtisadi, geosiyasi və hərbi cəhətdən güclənməsindən nəinki narahatdır, rəsmi Tehran bu reallığı həzm edə bilmir. Türkiyə-Azərbaycan tandemi İranı bölgədə arxa plana keçirib ki, bu da İranı rahatsız edib və Rusiya ilə bu ölkənin siyasi oyunlar oynaması da bu səbəbdəndir. Məsələ burasındadır ki, rəsmi Tehran nə qədər Moskvaya yaxınlaşmaq istəsə də reallıqlar yenə də həmin ölkənin xeyrinə deyil və bölgədə öz varlığını qorumaq üçün səyləri əbəsdir. Rusiya ilə münasibətləri nə qədər yaxşılaşdırmağa çalışsa da İran buna nail ola bilmir. Ona görə ki, Rusiya tərəfi Azərbaycanın və Türkiyənin potensialına, bölgədə söz sahibi olmasına inanır. Hətta nəinki Rusiya, eləcə də ABŞ və Avropa ittifaqı belə Azərbaycanın və Türkiyənin maraqları ilə hesablaşmaq niyyətində, deyərdik ki, məcburiyyətindədir və bunu hər addımda da hiss etmək çətin deyil.

Bu gün artıq istər Türkiyə, istərsə də Azərbaycan Mərkəzi Asiya ölkələri olan Qazaxıstan, Özbəkistan və Qırğızıstanla da fəal əlaqələr qurur ki, bu da öz təsirini hər mənada göstərməkdədir. Qeyd olunan əlaqələr hətta Tatarıstan və Başqırdıstan olmaqla, Rusiyanı bəzi regionlarına da təsirini genişləndirir. Azərbaycan məhz Cənubi Qafqazda, hətta Mərkəzi Asiyada iqtisadi mövcudluğunun bundan sonra daha da genişləndirilməsi məqsədi ilə Zəngəzur dəhlizi layihəsinin reallaşdırılmasına israrlıdır. Bunu İran tərəfi də bilir, Rusiya da, Fransa da. Bu isə o deməkdir ki, Azərbaycanın və Türkiyənin regionda liderliyi artıq öz təsdiqini tapır və bunu həmin ölkələrin seyr etməkdən başqa çarəsi qalmır. Belə bir çarəsizlik şəraitində birinci növbədə İran arxa plana keçdiyini başa düşür ki, səyləri də bu mənada çox aydın şəkildə özünü büruzə verir.

Təsadüfi deyil ki, İran bu gün əlinin hər yerdən üzülmək təhlükəsi ilə hər vəchlə Zəngəzur dəhlizinin reallaşmasına qarşı çıxır. İstər gizli, istərsə də aşkarda buna nail olmaq fikrindədir. Bunun üçün isə Ermənistanı hər mənada dəstəkləyir və niyyəti də bəllidir. Niyyəti isə ondan ibarətdir ki, birinci növbədə gözlənilən sülh müqaviləsinə mane olsun, ən azından Ermənistanı bir müddət bu müqaviləni imzalamaqdan çəkindirsin, Zəngəzur dəhlizi məsələsinə də əngəl yaratsın. Ermənistan tərəfə İranın hər bir köməyi də, yardımı da deyilənləri təsdiqləyir. İran hətta hərbi istiqamətdə də yardım etməkdən çəkinmir, baxmayaraq ki, bu, region üçün təhlükəli nəticələr vəd edir. Bir sözlə, İran hər şeyi göz ardına alaraq əlini müxtəlif istiqamətlərə uzadır. Rəsmi Tehranın məqsədi bəllidir. Məqsəd ondan ibarətdir ki, əvvla Azərbaycanın və Türkiyənin bölgədə liderliyinə mane olsun, digər tərəfdən də özünü, öz mövcudluğunu az da olsa qorusun.

Doğrudur, İranda vəziyyət molla rejimi üçün heç də ürəkaçan deyil və daxili təlatümlər bu ölkəni göz açmağa qoymur, əks halda hərhansı formada müdaxiləleri daha çox müşahidə etmiş olardıq. Bilirik ki, elan olunmasa belə İranda artıq vətəndaş müharibəsinin ilk qığılcımları görünür. Bu vəziyyət bir ölkə üçün ən fəlakətli hesab olunur və İran hakimiyyətinin vəziyyəti nəzarətdə saxlamaq üçün göstərdiyi səylər də diqqətdən yayınan deyil. Rəsmi Tehranın bəzi hallarda güzəştə belə getməsi əbəs yerə deyil. Bu vəziyyət ondan xəbər verir ki, İran hökuməti, molla rejimi mövcud vəziyyətə görə bərk qorxur. Bir sözlə, İranın başı özünə bərk qarışıb deyə müdaxiləleri də nisbətən səngiyib. Onu da nəzərə almaq lazımdır ki, İran hakimiyyəti ölkədəki mövcud vəziyyəti nizama sala bilsə, öhdəsindən gələ bilsə bölgəyə müdaxiləsini bir az da artıracaq. Hətta Ermənistana bu qondarma islam ölkəsinin yardımları bir qədər də arta bilər. Nə olur-olsun İran hər formada Azərbaycanın və Türkiyənin regionda söz sahibi olmasına, liderliyinə mane olmağa çalışacaq, baxmayaraq ki, buna nail ola bilməyəcək.

Özünü müşahidəçi kimi göstərsə də belə, Rusiya özü mövcud vəziyyətlə barışmaq istəmir. Nə Azərbaycanın, nə də Türkiyənin güclənməsi, söz sahibi olması, bölgədə liderliyi ələ alması Moskva üçün arzuolunan deyil. Kreml özü də bölgəyə müdaxilə etmək üçün maraqlıdır. Məsələ burasındadır ki, Rusiyanın vəziyyəti İranın vəziyyətindən heç də yaxşı deyil. Bu ölkənin özü-özünə başı elə qarışıb ki, gözünə bəlkə də heç nə görünmür. İstər iqtisadi və siyasi sanksiyalarla küncə sıxışdırılması olsun, istərsə də Ukrayna ilə müharibədə uğursuzluğu olsun, Rusiya çox çətin durumdadır. Qərbin təzyiqlərinə qarşı davam gətirməkdə hiss olunur ki, Moskva artıq çətinlik çəkir. Çox güman ki, İranın təkliflərini dinləmək məcburiyyəti də buradan qaynaqlanır. Özünü Türkiyə ilə, Azərbaycanla yaxın göstərsə belə, Rusiya bu iki qardaş ölkənin bölgədə liderliyi ələ aldığından heç də məmnun deyil. Moskva üçün reallıqlarla barışmaq çox çətindir. Ən çətin olan isə odur ki, Kreml Azərbaycanın öz tələblərini, Qarabağ məsələsi ilə bağlı tələblərini lazım gəlsə yenə də güc yolu ilə həll etmək iqtidarından olduğunu bilir. Bilir ki, Ermənistan sülh müqaviləsinin imzalanmasını uzatmaq, yaxud bundan boyun qaçırmaq istədiyi təqdirdə Azərbaycan öz hərbi qüdrəti ilə bunun öhdəsindən gələ bilər. Yaxşı bilir ki, İrəvan sülh müqaviləsindən boyun qaçıracağı təqdirdə Azərbaycan bu dəfə Ermənistanın silahlı qüvvələrini nəinki Qarabağ ərazisində, hətta Ermənistanın öz torpaqlarında rahat şəkildə məğlub edə bilər. Bu isə təkcə Rusiyanı özünə müttəfiq sayan Ermənistan üçün deyil, elə Moskvanın özü üçün də arzuolunmaz haldır. Əslində bu, Rusiyanın bölgədə tamamilə yoxluğunu, mövcud olmadığını sübut edən bir nömrəli fakt sayılar. Bu, Rusiyanın regionda təsir rıçaqlarının tamamilə itirilməsi anlamına gəlir ki, Kremli də ən çox narahat edən elə budur və Ermənistan tərəfinə gizlin yardımlar da bu səbəbdəndir. İranla hərbi-texniki, həmçinin iqtisadi əməkdaşlığı genişləndirməyə çalışan Rusiya bunu ən azından bir yol hesab edir. Hesab edir ki, İranla yaxınlıq etməklə, Ermənistana yardımlar etməklə, rəsmi İrəvanı Azərbaycana güzəştə getməkdən çəkindirə, hansısa bir müddətə də olsa bölgədə guya nəzarət mexanizmini əldə saxlaya bilər, amma bütün bunlar yanlış yanaşmadır, baxmayaraq ki, Moskvanın da, Tehranın da bu son ümidi hesab olunur.

Bölgəyə burnunu soxan ölkələrdən biri də Fransadır. Bu ölkə regionda münbit şərait olduğunu zənn edərək, öz varlığını, mövcudluğunu sübut etməyə çalışır. Qarabağla bağlı bəzi məqamların tam olaraq yekunlaşmasını ləngitməkdə maraqlı olan Paris məhz buna görə İrəvanın müqavimətini artırmağa çalışır. Bəzən yalançı vədlərlə, bəzən siyasi dəstəklə, bəzən müxtəlif yardımlarla Ermənistanı müqavimət göstərməyə ruhlandırmaq niyyəti güdən Fransa özünü bölgəyə salmaq, mövcud olduğunu sübut etdirmək istəyir. Fransız diplomatlarının bəzən Azərbaycan-Ermənistan danışıqlarında vasitəçi kimi çıxış etmək istəkləri və cəhdləri göstərir ki, Fransa özünü regionda görmək arzusundadır. Məsələ burasındadır ki, Fransanın bu qədər ciddi cəhdlərinin heç bir mənası yoxdur, çünki rəsmi Paris öz qətiyyəti, siyasi iradəsi ilə tanınan Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəyişməz mövqeyi ilə qarşılaşmaq məcburiyyətindədir. Ölkə rəhbərimizin qətiyyəti, siyasi iradəsi Fransanın da arzusunu puç etmiş oldu və bir daha təsdiq edildi ki, bölgədə söz sahibi, lider Azərbaycan və qadaş ölkə olan Türkiyədir.

Bu zamana qədər yaratdığı miflərin puça çevrilməsi fonunda Ermənistan da çıxılmaz durumdadır və hansısa şərtlə çıxış etmək, özünü göstərmək iqtidarında deyil. Əksinə, Azərbaycanın şərtləri ilə razılaşmaq məcburiyyətindədir. Bu gün Ermənistanın baş naziri Nikol Paşinyan da yaxşı bilir ki, heç bir söz sahibi deyil və məğlub ölkə adından çıxış edir. Doğrudur, erməni baş nazir müxtəlif formada müqavimət göstərdiyini nümayiş etdirməyə çalışır, çünki müqavimətsiz şəkildə hər şeylə razılaşacağı təqdirdə erməni cəmiyyətinin, ələlxüsus Ermənistan müxalifətinin təpkisi ilə rastlaşacağını yaxşı bilir. Ona görə də bir növ, guya müqavimət göstərdiyini biruzə verən xüsusi hazırlanmış tamaşa oynayır. Öz müqəddəratını düşünən Paşinyan hələ bundan sonra da müəyyən oyunlar oynamağa hazırdır, amma yekunda Azərbaycanın şərtlərini qəbul etməli olacağı, sərhədlərin delimitasiyası, demarkasiyası, sonda isə sülh müqaviləsinə razılaşmaq məcburiyyətində olduğunu dərk edir. Sonda bütün dünya erməni baş nazirinin "ümidsiz müqavimət" tamaşası oynayacağının da şahidi olacaq, çünki reallıqlar bunu tələb edir və bunu diqtə edir. Bir sözlə, Azərbaycan qalib ölkədir, bütün danışıqlarda qalib tərəf olaraq çıxış edir, öz hüquqlarını, öz haqlarını, özünə məxsus olanı müdafiə edir və bu baxımdan da haqlı tərəfdir. Üstəlik, ölkəmiz öz iqtisadi inkişafı, doğru yolu, strategiyası ilə söz sahibinə çevrilib. Bu gün qardaş ölkə olan Türkiyə ilə müttəfirliyi, birliyi Azərbaycanın gücünə güc qatıb və bölgədə hər iki ölkə söz sahibinə çevrilib və hansısa dövlətlərin, hansısa güclərin səylərinə baxmayaraq regionda artıq liderlik müəyyənləşib və regionun lider dövlətləri artıq Azərbaycan və Türkiyədir.

***İnam Hacıyev***

# "Biz Qərbi Azərbaycanla bağlı bizim olan hər şeyə sahib çıxmaqda qərarlıyıq və sahib çıxacağıq"

**Azərbaycan dövləti Qarabağı, Şərqi Zəngəzuru düşməndən azad etdikdən sonra, tarixin müxtəlif dövrlərində böyük güclərin diktəsi, erməni məkri ilə öz yurdundan qovulan, deportasiyalara məruz qalan minlərlə azərbaycanlının öz torpaqlarına qayıdışını, öz tarixini qorumağı əsas məqsədlərdən biri kimi gündəmə gətirib.**



Prezident İlham Əliyevin Qərbi Azərbaycan ictimai birliyinin inzibati binasının açılışında Qərbi Azərbaycana qayıdışla bağlı çıxışı və göstərdiyi hədəflər xüsusi vurğu və tarixi məqam kimi qeyd olunur, müzakirə edilir. Bu istiqamətdə Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərlinin SİA-ya müsahibəsini təqdim edirik:

***- Qərbi Azərbaycan İcmasının 2023-cü ildəki hədəfləri nədən ibarətdir? İcmanın qarşısında hansı məqsədlər durur?***

- 2023-cü ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam olur və bu il rəsmi olaraq Azərbaycanda Heydər Əliyev ilidir. Ulu Öndər Azərbaycan tarixinin çox böyük şəxsiyyətlərindəndir və XX əsrdə Azərbaycanın ən böyük tarixi şəxsiyyəti, ən böyük dövlət və siyasət xadimidir, bugünkü müstəqil Azərbaycanın xilaskarı və qurucusudur. Ulu Öndər Heydər Əliyev eyni zamanda azərbaycanlıların deportasiyasına və soyqırımına tarixi-siyasi qiymətin banisidir. Heç şübhəsiz, Qərbi Azərbaycan İcması olaraq 2023-cü ildə Ulu Öndərin həyatı, fəaliyyəti, ideyaları ilə bağlı silsilə tədbirlərimiz olacaq. Bununla yanaşı, bilirsiniz ki, dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasında İcmanın nümayəndələri ilə görüşdə qarşımızda bir sıra vəzifələr qoydu, tövsiyələr verdi. Hazırda Qərbi Azərbaycana Qayıdış konsepsiyası hazırlanır və bizi bu Konsepsiyaya uyğun gərgin fəaliyyət gözləyir. Biz bu il Qərbi Azərbaycana qayıdış ideyasını bütün dünya azərbaycanlılarının ümummilli ideyasına çevirməyi, 50 milyonluq Azərbaycan xalqını bu ideya ətrafında səfərbər etməyi hədəfləyirik.

***- Haqsızlığa uğrayaraq öz doğma yurd-yuvalarından didərgin düşən hər bir Qərbi Azərbaycanlı dədə-babalarının hansı torpaqda doğulduğu, necə bir tarixi-mədəni irsə sahib olduğunu bilir. Bəs, bu məlumatları daxildən çıxarıb dünyaya necə ötürməliyik?***

- Qərbi Azərbaycan əlahiddə bir region deyil, Azərbaycan tarixinin və Azərbaycan coğrafiyasının bir parçasıdır, son qarışına qədər Azərbaycanın tarixi əraziləridir. Bu düşüncəni biz ilk növbədə hər bir Azərbaycan insanının şüuruna həkk etməliyik. Millət özünün olan hər şeyə sahib çıxmağı bacarmalıdır, ən azı, bu istiqamətdə çalışmalıdır. Bundan sonra gəlir bu informasiyaları ətrafdakılara təlqin etmək. Bəli, biz Qərbi Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün üsul və metodlardan istifadə edəcəyik. Dünya son iki yüz ildə Cənubi Qafqazda baş verənlərdən xəbərdar olmalıdır. Dünya ermənilərin əsl simasını bilməlidir. Bizim son iki yüz ildə bu toplumdan nələr çəkdiyimizi, ermənilərin xalqımıza qarşı hansı cinayətləri törətdiyindən xəbərdar olmalıdır. Qarabağ məsələsi ermənilərin bu cinayət zəncirinin, olsa-olsa, bir həlqəsidir. Dünya bunu bilməlidir.

***- Beynəlxalq təşkilatların Qərbi Azərbaycan məsələsinə münasibətini necə dəyərləndirmək olar?***

- Beynəlxalq təşkilatların tək Qərbi Azərbaycan yox, bütövlükdə Azərbaycan məsələsinə münasibəti hamımıza aydındır. İkili standartlar, təcavüzkarı dəstəkləmək, ən yaxşı halda erməni cinayətlərini görməzlikdən gəlmək və s. son 30 ildə bir çox dövlətlərin və beynəlxalq təşkilatların mövqeyi olub. BMT-nin, YUNESKO-nun, Minsk qrupunun və s. fəaliyyətində biz bunu aydın gördük. Qərbi Azərbaycan məsələsində də fərqli münasibət gözləmirik. Lakin bu, bizi nə öz mövqeyimizdən döndərə, nə də mübarizəmizdən çəkindirə bilər. Dədə-baba yurdlarımıza, 34 il əvvəl qovulduğumuz evlərimizə, kəndlərimizə qayıtmaq bizim beynəlxalq hüquqa söykənən haqqımızdır.

***- Qərbi Azərbaycan da tariximizin əvəzolunmaz bir tərkib hissəsidir. Bu tarixi yaşatmaq üçün o yerlərin canlı şahidlərinin yaddaşından necə faydalanmaq olar?***

- Biz artıq bu istiqamətdə işə başlamışıq. 1988-1991-ci və 1948-1953-cü illər deportasiyalarının şahidi olan insanlarımızın videogörüntülərini alırıq. Müxtəlif telekanallarımızda artıq onlarla ailələrdən çəkilişlər həyata keçirilib. Qərbi Azərbaycan İcması olaraq biz bu işi təşkil edirik, telekanallar isə həyata keçirir. Bu iş davam edəcək. Bundan əlavə, biz Qərbi Azərbaycanla bağlı çoxlu sənədli filmlər çəkilməsini nəzərdə tutmuşuq. Bu, bizim qaçqınlıq tariximizdir. Lakin o torpaqlarda bizim minillər formalaşan zəngin mədəni irsimiz var, tarixi və mədəni abidələrimiz, toponimlərimiz, folklorumuz var. Bunların qeydiyyata alınması, toplanması istiqamətində də işə başlanmışdır. Bir sözlə, biz Qərbi Azərbaycanla bağlı bizim olan hər şeyə sahib çıxmaqda qərarlıyıq və sahib çıxacağıq.

***- Bildiyimiz kimi, Qərbi Azərbaycandan deportasiya olunanların qaçqın statusundan irəli gələn güzəştlər xeyli dərəcədə ləğv olunub. Bu məsələnin həlli ilə bağlı hər hansı təklifləriniz varmı?***

- Bütün istiqamətlər üzrə təkliflər toplanıb, ümumiləşdirilir. Mən də o fikirdəyəm ki, qaçqınlarımızın statusu məsələsinə yenidən baxılmalı, müəyyən dəyişikliklər edilməlidir. Amma hansı dəyişikliklər edilməlidir, bu müzakirələr nəticəsində məlum olacaqdır. Biz belə hesab edirik ki, bu qanun qaçqın soydaşlarımızın ata-baba yurdlarına qayıdışının və bu istiqamətdə mübarizəsinin hüquqi bazasını yaratmalıdır və bu baxımdan müvafiq qanunun təkmilləşdirilməsinə ehtiyac var.

***- Qərbi Azərbaycandan olan həmyerlilərimizin siyahıya alınması prosesi hazırda hansı mərhələdədir?***

- Biz bu işə sonuncu deportasiya zamanı - 1988-1991-ci illərdə dədə-baba yurdlarından qovulmuş qaçqınlarımızın siyahıya alınmasından başlamışıq və bu il bu işi başa çatdırmağa çalışırıq. Bununla paralel olaraq 1948-1953-cü il deportasiyası ilə bağlı siyahıyaalmalara da start verilmişdir.

***Ləman Əlizadə***

# "Siyasi partiyalar haqqında yeni qanun demokratik dəyərlərə söykənən sənəddir"



"1992-ci ildə qəbul edilmiş "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu müasir dövrün tələblərinə, ölkəmizdə siyasi partiyaların effektiv fəaliyyət göstərmələrinə cavab vermədiyindən yeni Qanunun qəbul edilməsi zərurəti yaranmışdır. Bununla bağlı Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni Qanun layihəsinin hazırlanması üçün Milli Məclis Sədrinə müraciət edib.

"Siyasi partiyalar haqqında" Qanun layihəsi hazırlanan zaman Venesiya Komissiyasının 2010-cu ildə qəbul etdiyi "Siyasi partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi barədə vəziyyət", Venesiya Komissiyasının və ATƏT in Demokratik Təsisatlar və İnsan Hüquqları bürosunun birgə rəyi, 24 ölkənin təcrübəsi, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların 47 nin Milli Məclisə yazılı formada təqdim etdiyi 250 dən çox təklifi, eləcə də Milli Məclisin komitə və plenar iclaslarında deputatlar tərəfindən irəli sürülmüş 100 dən çox təkliflər nəzərə alınıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.



Onun sözlərinə görə, "Siyasi partiyalar haqqında " Qanun layihəsinin hazırlanması üçün Milli Məclis tərəfindən Qanun layihəsi ilə bağlı təkliflərin təqdim edilməsi üçün siyasi partiyalara müraciət edilib: "Milli Məclisin komitə iclasına çıxarılmazdan əvvəl Qanun layihəsi təklif və rəylərin bildirilməsi üçün Milli Məclisin saytına yerləşdirilmişdir". Deputat sözlərinə belə davam edib: "Sosial Tədqiqatlar Mərkəzi tərəfindən Qanun layihəsində əksini tapmış məsələlərlə bağlı sorğu keçirilmişdir. Milli Məclisdə Qanun layihəsi ilə bağlı siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinin də iştirakı ilə dinləmələr keçirilmişdir. Son olaraq dinləmələrdən sonra Qanun layihəsində müsbətə doğru ümumilikdə 110 əlavə və dəyişikliklər edilmişdir. Ən əsası Venesiya Komissiyasının siyasi partiyaların statusu və fəaliyyətinə dair 132 tövsiyyəsindən 112- i Qanun layihəsində nəzərə alınmışdır. Siyasi partiyalar haqqında yeni qanun demokratik dəyərlərə söykənən sənəddir və siyasi partiyalar fəaliyyətlərində dövlətin onlara göstərdiyi dəstək və şəraitdən yararlanacaqlar".

***A. Vəli***

# "Qərbi Azərbaycana qayıdış bu insanların haqqıdır"

"Qərbi Azərbaycana qayıdış Zəngəzurun, İrəvanın, Göyçənin didərgin salınmış əsl sahiblərinin öz ata-baba yurdlarına yenidən sahib çıxması mürəkkəb tarixi-siyasi prosesdir və köklü konseptual yanaşma tələb edir". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, bu baxımdan, Prezident İlham Əliyevin keçən ilki doğum günündə Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşməsi prosesin çox mühüm bir fazasına qədəm qoyulmasından xəbər verir: "Əlbəttə, həmin tarixə qədər artıq cənab İlham Əliyev Qərbi Azərbaycana dönüş məsələsini dəfələrlə gündəmə gətirmiş və bu konsepsiyanı hücum siyasətimizin mühüm bir elementinə çevirmişdi.

Xatırlayırsınızsa, 2020-ci ilin martın 4-də Tovuzda Tarix-Diyarşünaslıq, həmin il iyunun 3-də isə Tərtərdə Dövlət Rəmzləri Muzeylərinin açılışında Prezident İlham Əliyev asılmış xəritələrə baxaraq Qərbi Azərbaycandakı tarixi adların düzgün yazılmasını tələb etmişdi. Eyni zamanda dövlət başçısı media mənsubları və ictimaiyyət nümayəndələrinə hazırda Ermənistanın ərazisindəki qədim Azərbaycan yurd yerlərinin tarixi adlarından istifadə etməyə çağırmışdı. Ötən il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində isə cənab İlham Əliyev Qərbi Azərbaycanın Ermənistana verilməsi, Zəngəzurla bağlı şəxsi tarixçəsi, habelə Naxçıvanda əslən Zəngəzurdan olan babasının məzarını ziyarət etməsi ilə bağlı fikirləri artıq möhtərəm Prezidentin bu istiqamətdə aydın yol xəritəsinə malik olduğunu göstərirdi".

Deputat sözlərinə belə davam edib: "2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan icması ilə görüşdə isə artıq konkret tapşırıqlar qoyuldu. İlk növbədə mükəmməl qayıdış konspesiyasının hazırlanması, bu istiqamətdə hüquqi-siyasi tədbirlər planın müəyyən olunması, informasiya siyasətinin konturlarının müəyyən olunması kimi ciddi vəzifələr müəyyən olundu. Əlbəttə, dövlət başçısının bu addımları bizim Ermənistana ərazi iddiamız deyil, lakin eyni zamanda da unutmamalıyıq ki, 300 mindən artıq insanın öz yurd yerinin iddiasından da imtina edilməyəcək. Zəngəzura, İrəvana, Göyçəyə, Dərələyəzə, bir sözlə Qərbi Azərbaycana qayıdış bu insanların haqqıdır və hər kəs də əmin olsun ki, Azərbaycan dövləti də dünya azərbaycanlılarının yeganə mərkəzi, Prezident İlham Əliyev isə tək lideri kimi hansı yolla olur-olsun, bu qayıdışın ləyaqətli formada reallaşmasını təmin edəcək".

***Ayşən***

ANALİTİK+AKTUAL

# Rusiya-Ukrayna müharibəsi: bəşəriyyəti bir sual düşündürür...



**Son statistik məlumatlara görə, ötən ilin fevral ayının 24-dən başlayan Rusiya-Ukrayna müharibəsində 7 min dinc sakini ölüb. Bu barədə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari DiKarlo BMT Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı məlumat verib. O, fevral ayından indiyədək 11 mindən çox mülki vətəndaşın xəsarət aldığını deyib. DiKarlo əlavə edib ki, müharibə başlayandan bir neçə milyon insan evlərini tərk etməli olub. Onların təxminən 7,9 milyonu Avropa ölkələrinə gedib.**

Dəyən zərərə gəlincə, BMT hazırda Ukraynanın mülki infrastrukturuna dəyən zərərin həcmini qiymətləndirməyi yekunlaşdırmaq üzrədir. Bütün bunlardan sonra bəşəriyyət qarşısında bir sual dayanır - bəs bu dəhşətli müharibə nə qədər davam edəcək?

## Bəs dəhşətli müharibə nə qədər davam edəcək?



### Sanksiyalar Rusiyanın Ukraynadakı hərbi əməliyyatları dayandırmasına heç bir təsirlərini göstərmir

Xüsusilə, Rusiyanın Ukraynanın Dnepropetrovsk şəhərindəki iri yaşayış massivini ballistik raket zərbəsinə məruz qoymasının, eləcə də dinc insanların həlak olmasının ardınca dünya birliyi Moskvaya qarşı daha qətiyyətli və sərt addımların atılması barədə bəyanatlar səsləndirir. Düzdür, sanksiyalar demək olar ki, hər gün tətbiq edilir və maraqlısı da budur ki, həmin sanksiyalar Rusiyanın Ukraynadakı hərbi əməliyyatları dayandırmasına heç bir təsirlərini göstərmir. Çünki buna qədər Buşa, Xarkov, Mariupol, Xerson faciələri də var idi...

Əksinə, Rusiya artıq yeni və daha geniş hücumlara başlayacağı siqnallarını verir. Məsələn, o da məlum olub ki, səfərbərlik barədə yeni qərarın qüvvəyə minməsi an məsələsidir və bu baxımdan, Rusiyada müəyyən yaş həddinə malik şəxslərin ölkə ərazisini tərk etmələrinə qarşı qadağaların tətbiqinə başlanılıb. Bu isə ötən ilin fevralından başlayan və qismən səfərbərliyin tam səfərbərliklə əvəzlənməsini sübut edən fakt olaraq nəzərə alına bilər. Daha dəqiq desək, müharibə get-gedə irimiqyaslı savaşa çevrilir.

### Müharibənin tezliklə başa çatmasının qeyri-mümkün görünməsi daha çox özünü göstərməyə başlayır

Başqa tərəfdən, hazırda bir sıra Avropa ölkələri və ABŞ Ukraynaya hərbi dəstəklərini əsirgəmirlər. Zirehli texnikalardan başlayaraq uçuş aparatlarına, PUA-lara və s. təchizatlarla yanaşı, Ukraynada xarici legionerlərin də fəaliyyətləri artırılmaqdadır. Belə olan halda müharibənin tezliklə başa çatmasının qeyri-mümkün görünməsi daha çox özünü göstərməyə başlayır. Lakin ən acınacaqlı fakt budur ki, Rusiya-Ukrayna müharibəsinin Dünya müharibəsi təhlükəsini get-gedə daha da artırması ehtimalı artıq reallığın bir addımlığındadır. Əbəs deyil ki, ABŞ-ın hərbi-analitik nəşrləri də belə bir proqnozlarla çıxış edirlər ki, bu müharibədən qaynaqlanan yeni müharibələrin başlanması an məsələsidir və bəşəriyyət həmin müharibələrə hazır olmalıdır.

### Əvvəllər Donbas və Luqansk, eləcə də Krım kimi ərazilərə qarşı iddialar var idisə, indi bu iddialar bütün Ukrayna ərazisinə qarşı yönəlib

Lakin daha bir danılmaz həqiqət budur ki, Rusiya öz iddialarında israrlı olduğunu gizlətmir və bütövlükdə Ukraynanı işğal etmək siyasətini yürütdüyünü etiraf edir. Yəni əvvəllər Donbas və Luqansk, eləcə də Krım kimi ərazilərə qarşı iddialar var idisə, indi bu iddialar bütün Ukrayna ərazisinə qarşı yönəlib. Bu amil isə ciddi, hətta qorxulu nəticələrə qədər inkişaf edəcək və etməyə başlayıb da. Günahsız insanların müharibə qurbanlarına çevrilmələri bütün bunlara sübutdur!

Başqa yandan, müharibə məkanında milyardlarla maliyyələrin uçuşduğu bir dövrdə savaşda bu və ya digər cəhətdən iştirakçıya çevrilən ölkələr də ciddi zərbələrə məruz qalmaqdadırlar. Daha dəqiq desək, Rusiya-Ukrayna müharibəsi artıq nəinki döyüşən tərəflərə, hətta Qərbə və bütün dünyaya ciddi öz ağır ziyanlarını vurub. Amma buna baxmayaraq, Qərb də öz maraqlarını təhlükə altına atmamaq üçün inadla Rusiyaya qarşı əlində olan bütün imkanlarını, özü də heç bir məhdudiyyət qoymadan istifadə edir.



### Rusiyanın Müdafiə Nazirliyinin rəsmi saytında uzun məsafəli ballistik raketlərin Ukraynaya doğru atılmasına hazır olduğunu göstərən fotolar paylaşılıb

Lakin sanksiyalar, hərbi yardımlar və s. kimi məsələlər "yaralı rus ayısını" daha da azğınlaşdırır, Kreml zaman-zaman hədə dolu bəyanatlarını səsləndirir. Misal üçün, bugünlərdə Rusiyanın Müdafiə Nazirliyinin rəsmi saytında uzun məsafəli ballistik raketlərin Ukraynaya doğru atılmasına hazır olduğunu göstərən fotolar paylaşılıb. Bu raketlər öz dağıdıcılıq miqyasına görə daha əvvəl atılan və indi də tətbiq edilən digər raketlərdən qat-qat güclüdür. Təəssüf doğuran isə yalnız bir amildir - din insanların, günahsız uşaqların, yaşlıların müharibə qurbanlarına çevrilmələri... Ancaq bu ağrılı faktlar da əfsuslar olsun ki, qanlı-qadalı müharibənin başa çatmasına heç bir təsir göstərmir.

Ona görə də bəşəriyyət "Bəs görəsən müharibə nə vaxtadək davam edə bilər? Prosesin uzanması dünyaya nə vəd edir?" suallarını ətrafında cavabsız qalmaqda davam edir.

### Müharibə Ukraynanın Qərb və NATO-ya inteqrasiyasını daha da sürətləndirir

Sadəcə ehtimallar, proqnozlar hər kəsə kifayət qədər məlum olan həqiqəti ehtiva etməkdədir - bəli, müharibənin tezliklə başa çatması barədə düşünmək, ya da danışmaq çox tezdir. Müharibənin bitməsi üçün Rusiyanın qərarlı addıma, siyasi iradəsinə söykənməsi lazımdır. Ancaq fakt budur ki, Donetsk və Luqanskda qondarma bir bölgənin yaradılması və Krımın Rusiya ərazisi kimi tanınması fonunda Ukrayna və Qərb arasında sərhəd yaratmaq cəhdləri indiki halda reallaşmayacaq.

Bir sıra konfliktoloqlar və hərbi ekspertlər də zaman-zaman analitik rəylərində bildirirlər ki, əslində müharibə Ukraynanın Qərb və NATO-ya inteqrasiyasını daha da sürətləndirir. Bunun isə başqa tərəfləri də var. Məsələn, ABŞ-da qəbul edilən "Lendliz haqqında qanunla" Avropa ölkələrinin və Amerikanın Ukrayna ilə sıx əməkdaşlığı başladı və bu, Rusiyanın planlarının suya düşməsi ilə nəticələndi. Ukraynanın NATO və Qərbin hərbi strukturları ilə inteqrasiyası daha da dərinləşdi. Ona görə də, Rusiya-Ukrayna münasibətlərinin post-müharibə dövründə nizamlanması mərhələsi çox uzun müddət davam edəcək. Hətta bir sıra hallarda belə bir məntiqlərə də varılır ki, Rusiya-Ukrayna müharibəsinin 2025-ci ilə qədər davam edəcək. Eyni zamanda, müharibənin davamını şərtləndirən daha bir faktor həm Ukraynada, həm də Rusiyada hakimiyyət dəyişikliklərinin baş verməməsi ilə bağlıdır. Belə ki, məhz müharibə amili istənilən seçkiləri arxa plana atır və bu gün Putin-Zelenski qarşıdurmasının mövcudluğu da qeyd edilənləri kifayət qədər təsdiq edir.

**Rövşən RƏSULOV**

# 2023-cü il:

## Böyük Qayıdışın sürətli inkişaf mərhələsi!

**Prezident İlham Əliyev:**
"Həm müharibədə qalib olmaq, xalqımızın ümidlərini doğrultmaq, eyni zamanda, qurub-yaratmaq - bundan böyük xoşbəxtlik ola bilməz"

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin, strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. Bu ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. İşğaldan azad olunmuş ərazilərimizin hər biri, məhz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ağalı kimi müasir məkana çevriləcək və buranın əzəli sakinləri rahat, təhlükəsiz bir şəraitdə bu yerlərdə əbədi olaraq yaşayacaqlar. "İstəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər qayıtsınlar dədə-baba torpaqlarına və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək. Laçında hazırda yüzlərlə ev yenidən qurulur, təmir edilir, o cümlədən ictimai binalar. İlin sonuna qədər dediyim kimi, laçınlıların birinci qrupunu biz artıq yerləşdirəcəyik. Zabux və Sus kəndlərində də məncə, 200-dən çox ailə məskunlaşacaq". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib.

Ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verəcək. Sərəncamda vurğulandığı kimi, Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin daimi-təhlükəsiz məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün şərait yaradır.







### BİRİNCİ PILOT LAYİHƏ - AĞALI KƏNDİ

Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapacaqdır. Məlumdur ki, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Tariximizə yazılan Böyük Qaydışın ilk karvanı əzəli torpağımıza yol aldı. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idi. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

### ”BU İL ZABUX VƏ SUS KƏNDLƏRİNƏ DƏ KEÇMİŞ KÖÇKÜNLƏRİ QAYTARACAĞIQ”

Artıq Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürülüb. İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. İndi isə digər ərazilərimizə qayıdış olacaq. ”Ən tez öz doğma ocaqlarına qayıdan laçınlılar olacaq. Çünki dərhal göstəriş verildi, indi Laçın şəhərində geniş quruculuq-bərpa işləri gedir və indi baxacağıq, bu il biz Laçın şəhərinə ilk laçınlıları nə vaxt qaytaracağıq. Bu il Zabux və Sus kəndlərinə də keçmiş köçkünləri qaytaracağıq. Zabux kəndində hansısa varlı erməni tərəfindən evlər tikilibdir. Mən o evləri müvəqqəti olaraq hərbçilərə vermişəm. Mən dedim ki, bizim vətəndaşlar o evlərdə yaşamayacaq. Onlardan biz kazarma kimi istifadə edirik. Amma zabuxlular üçün Zabux kəndində yeni qəsəbə salınır və bu il biz onları oraya göndərəcəyik”.




Bütün bunlarla yanaşı, bir çox kəndlərdə artıq inşaat işlərinə başlanılıb. ”Təqribən birinci mərhələdə 100-ə qədər yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. İndi Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə də başlamışıq”, - deyən dövlət başçısı bildirib ki, bir neçə kəndin təməli qoyulub: ”Yəni, 2023-cü il artıq Böyük Qayıdışın ilk addımlarından biri olacaq. Əlbəttə, Ağalı kəndi birinci addım idi. Amma biz bu il bunu, inşallah, daha kütləvi surətdə görəcəyik. Bununla paralel olaraq, Şuşada, Ağdamda, Füzulidə məktəblər, xəstəxanalar hazır olacaq. Əlbəttə ki, təhlükəsizlik məsələləri də ciddi nəzərə alınmalıdır. Çünki əfsuslar olsun ki, 279 azərbaycanlı mina partlayışlarında ya həlak oldu, ya da ki, öz sağlamlığını itirdi. Ona görə oraya qayıdacaq soydaşlarımız çox ehtiyatlı olmalıdırlar, ancaq icazəli yerlərə getməlidirlər. Artıq biz bu il Böyük Qayıdışın sürətli inkişaf mərhələsinə başlayırıq. Əlbəttə ki, infrastruktur olmadan insanları köçürmək mümkün deyildi. Elektrik enerjisi ilə bağlı bütün məsələlər həll olundu. Bütün Qarabağ və Şərqi Zəngəzur vahid bir enerji şəbəkəsinə qoşuldu. Biz azad olunmuş torpaqlarda 11 su elektrik stansiyasını inşa etdik və onların generasiya gücü təqribən 55 meqavata yaxındır. Yəni, bu, böyük rəqəmdir və bölgəni indiki şəraitdə tam təmin edir. Bu, ümumi sistemdə olduğu üçün əlbəttə ki, bərpaolunan enerji növlərinin bizim enerji balansımızda payını da artırır. Hazırda 7 stansiyanın inşası gedir və bütövlükdə orada 50-yə yaxın su elektrik stansiyası yaradılacaq”.

### ”Torpaq çəkir və əminəm ki, bizim keçmiş köçkünlərimizin hamısı qayıdacaq”

Bu gün artıq bir çox ərazilərimiz kimi, Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndində də bərpa-quruculuq işləri davam etdirilir. İlkin mərhələdə 20 ev müasir tələblərə uyğun qurularaq bir zamanlar doğma yurdlarından didərgin düşən ailələrə təhvil veriləcək. Artıq 20 evin əsaslı təmirbərpa işləri başa çatıb. Evlərin daxilində kommunikasiya sistemi çəkilib, hər bir ev mətbəx mebeli ilə təchiz edilib. Məişət avadanlıqları sakinlərin köçürülməsindən öncə qurulub, tam hazır və işlək vəziyyətə gətiriləcək. Kənddə inzibati binada, məktəbdə, uşaq bağçasında, xeyir-şər evi və mağazada əsaslı təmir işləri davam edir. Talış kəndində qaz, elektrik, su, rabitə xətlərinin çəkilişi aparılır. Müasir kanalizasiya sistemi inşa olunur. Kəndarası yollar da yenidən qurulur. Yolların işıqlanması günəş panelləri ilə çalışan işıq dayaqları vasitəsilə həyata keçiriləcək.

”Bu, doğrudan da böyük xoşbəxtlikdir. Həm müharibədə qalib olmaq, xalqımızın ümidlərini doğrultmaq, eyni zamanda, qurub-yaratmaq - bundan böyük xoşbəxtlik ola bilməz”, - deyə bildirən Prezident vurğulayıb ki, bu, bir daha xalqımızın böyüklüyünü göstərir ki, xalqımız doğrudan da uzun illər ərzində əyilmədi və öz kimliyini unutmadı: ”Zəngilanın Ağalı kəndində uşaqların baxışlarını, gülüşlərini görəndə vallah, adam sanki uçur. Axı onlar bu yerləri ancaq kitablarda görüblər, məktəblərdə eşidiblər, valideynlərindən, babalarından, nənələrindən eşidiblər, amma indi gəliblər oraya. Torpaq çəkir və əminəm ki, bizim keçmiş köçkünlərimizin hamısı qayıdacaq”.

**_Zümrüd BAYRAMOVA_**

---

# “Dünya mediası Laçın-Xankəndi yolundakı aksiyanı obyektiv işıqlandırsın”

**Azərbaycanlı fəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın-Xankəndi yolunda keçirdikləri aksiyanın dünyanın bir sıra media vasitələrində təqdimatı cəmiyyətimizin müxtəlif təbəqələri kimi, ölkəmizin jurnalist ictimaiyyətinin nümayəndələrini də ciddi şəkildə narahat etməkdədir.**

SİA-nın məlumatına görə, Azərbaycan Mətbuat Şurası bildirir ki, bu təqdimatlar söz və ifadə azadlığının imkanlarından sui-istifadədir, qərəz və qeyri-obyektivlikdir.






Qarabağ Azərbaycanın suveren, beynəlxalq səviyyədə tanınmış ərazisidir. Bölgədə yaşayan ermənilər də hüquqi baxımdan ölkəmizin vətəndaşlarıdırlar. Lakin erməni lobbi və diaspor təşkilatlarının, habelə, Qarabağdakı qondarma rejimin ”dövlət naziri” kimi oyuncaq postu tutan Ruben Vardanyanın çirkli maliyyəsi hesabına məqsədli formada hərəkətə gətirilmiş dünyanın bəzi media orqanları elə görüntü yaradırlar ki, sanki, azərbaycanlı fəallarn Laçın-Xankəndi yolunda keçirdikləri aksiya Qarabağ ermənilərinin yaşam hüququna təhdiddir. Bu fonda humanitar fəlakət, Azərbaycanın erməni əhaliyə qarşı soyqırımı, etnik təmizləmə, 120 min ermənin blokadada qalması, onlardan 30 mininin uşaq olması, Xankəndi xəstəxanalarında ağır xəstələrin mövcudluğu kimi yalan şablonlar dövriyyəyə buraxılır. Belə təqdimatlar reallığı qətiyyən əks etdirmir. Çünki azərbaycanlı fəalların etirazının konkret məqsədi var. Aksiya heç bir halda Qarabağı blokadada saxlamaq məramına xidmət etmir, bölgəyə humanitar yüklərin daşınmasında hər hansı problem, manеə yoxdur.

Laçın-Xankəndi yolundakı aksiya artıq bir aydan çoxdur ki davam edir. Qeyd edilmiş media vasitələri ermənipərəst siyasətin əsirinə çevrilməyib duruma bir qədər həssas yanaşsaydılar, vardanyanların və digərlərinin şablonlarının mahiyyətinə diqqət yetirər, müəyyənləşdirərdilər ki, bölgədə humanitar fəlakət kimi qiymətləndiriləcək durum tam istisnadır. Təəssüf ki, biz belə həssas yanaşmanı deyil, qeyri-peşəkarlığı görürük. Bu yol isə aksiya ilə bağlı əsl gerçəklikdən diqqəti yayındırmaqdır, aşkar manipulyasiyadır.

O da təəssüf doğurur ki, bilərəkdən, yaxud bilməyərəkdən manipulyasiyaya yol verənlər dünyanın və Avropanın ictimai rəyində çəkiyə malik olduğunu, fikir plüralizmini rərbər tutduğunu, yaradıcılıqlarının bəşəri dəyərlərə xidmət amalına söykəndiyini bəyan edən media vasitələridir. Onların məqalələri, faktiki olaraq, bir-birinin təkrarıdır. Eyni məzmun, eyni qərəzli iddialar, hətta, bəzi hallarda cümlələr belə eynidir.

Halbuki, obyektiv media R.Vardanyanın kimliyini araşdırmalı, onun böyük məbləğdə pul maxinasiyaları həyata keçirdiyini, kriminalla yaxın olduğunu bildirməli, belə bir şəxsin qanunsuz və cinayət xarakterli fəaliyyət həyata keçirdiyini diqqətə çatdırmalıydı. Bu, bəşəri dəyərlərə xidmət nümunəsi olardı.

Azərbaycan Mətbuat Şurası dünyanın aparıcı media vasitələrini Laçın-Xankəndi yolundakı aksiyaya obyektiv qiymət verməyə, onunla bağlı əsl həqiqətlərə diqqət yetirməyə, birtərəfli və qeyri-obyektiv təbliğatın aləti olmamağa çağırır. Onlar nəzərə almalıdırlar ki, bu aksiyanın, ümumiyyətlə, Azərbaycan və Ermənistan arasındakı münaqişəli durumun beynəlxalq miqyasda ədalətli tədqimatı, bütövlükdə Cəbubi Qafqaz coğrafiyasında sülhün, əminamanlığın, dinc birgəyaşamın formalaşması baxımından son dərəcədə vacibdir.

# 4-cü sosial islahat paketi və 5 illik strategiya nə vəd edir?

**Prezident İlham Əliyevin yeni və sərəncamları ilə son 5 ildə ölkəmizdə artıq dördüncü sosial islahat paketi reallaşdırılaraq əməkhaqqı, müavinət və təqaüdlərin növbəti dəfə artırılması təmin olunur.**

2023-ci il 1 yanvar tarixindən sonra müavinət və təqaüdlərin artım məbləği barədə siyahı

| S/S | Sosial müavinət | 2022-ci il | 2023-cü il |
|---|---|---|---|
| 1 | Yaşa görə müavinət | 180 | 220 |
| 2 | 1-ci dərəcə əlilliyə görə müavinət | 220 | 270 |
| 3 | 2-ci dərəcə əlilliyə görə müavinət | 180 | 220 |
| 4 | 3-ci dərəcə əlilliyə görə müavinət | 120 | 150 |
| 5 | Ailə başçısını itirməyə görə müavinət | 100 | 120 |
| 6 | bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət | 70 | 100 |
| 7 | uşağın anadan olmasına görə müavinət | 300 | 500 |
| 8 | dəfn üçün müavinət | 350 | 500 |
| 9 | 5-dən çox uşağı olan qadınlara görə müavinət | 70 | 105 |
| 10 | Radiasiya qəzası nəticəsində | 237 | 300 |
| **S/S** | **Prezident təqaüdü** | | |
| 1 | I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə | 80 | 100 |
| 2 | elmlər doktoru elmi dərəcəsinə görə | 300 | 500 |
| 3 | fəlsəfə doktoru elmi dərəcəsinə görə | 200 | 300 |
| 4 | Fəxri ada görə (xalq) | 180 | 200 |
| 5 | Fəxri ada görə (əməkdar) | 120 | 150 |
| 6 | Prezidentin Fərdi təqaüdü | 1450 | 1500 |
| 7 | Şəhid ailəsi üçün Prezident təqaüdü | 500 | 600 |
| 8 | Müharibə əlili -1-ci qrup | 400 | 500 |
| 9 | Müharibə əlili -2-ci qrup | 350 | 400 |
| 10 | Müharibə əlili -3-cü qrup | 300 | 330 |
| 11 | 1-ci dərəcə əlilliyə görə Prezident təqaüdü | 130 | 200 |
| 12 | 1-ci dərəcə gözdən əlilliyə görə Prezident təqaüdü | 210 | 300 |
| 13 | Böyük vətən müharibəsi | 300 | 330 |

Yeni Fərman və Sərəncamlarla dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanların aylıq vəzifə maaşları 2023-cü il yanvarın 1-dən orta hesabla 15 faiz artıb, müavinət və təqaüdlərdə də növbəti artımlar edilib. 2023-cü ilin 1 yanvarından Prezidentin aylıq təqaüdü şəhid ailəsi üçün 600 manata çatdırılıb. Həmçinin əlilliyi olan şəxslərə yönələn həm müavinətlər, həm də təqaüdlər artırılıb.

Prezidentin aylıq təqaüdü müharibə, 20 Yanvar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər üçün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına



görə (I dərəcə) 500 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manata çatdırılmaqla bərabər, digər tərəfdən bütün kateqoriyalara aid əlilliyi olan şəxslər üçün müavinət də orqanizmin funksiyalarının 81-100 faiz, 61-80 faiz və 31-60 faiz pozulmasına görə müvafiq olaraq 270 manata, 220 manata və 150 manata çatdırılıb.

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan sosial sahədəki prioritetlər və sosial sahələr üzrə yeni inkişaf modeli bu sahədə böyük dəyişikliyə səbəb olacaq. 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli Azərbaycanda çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən edəcək. Bu mərhələdə başlıca məqsəd yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə, hər bir Azərbaycan Respublikası vətəndaşının sabit təminatlı həyat səviyyəsinə nail olmaqdır. Bu zaman başlıca vektor artımın səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanacaq.

Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə strateji çərçivəyə əsasən əməkhaqları artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcək. İşləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqları artırılacaq. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunacaq.

Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaq. Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaq. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək, bunun nəticəsində qeyri-dövlət sektorunda məşğul əhalinin payı 2021-ci ildəki 77,6%-dən artaraq 80%-ə çatdırılacaq.

Qeyri-formal məşğulluğun mərhələli azaldılması nəticəsində muzdla işləyənlər üzrə qeyri-dövlət sektorunun payı 50% (2021-ci il üzrə: 46,9% olub) təşkil edəcək. Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaqdır. Pensiyaçılar üçün effektiv yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün isə sosial yardımların əlçatanlığı artırılacaqdır. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və sosial xidmətlər sistemi inkişaf etdiriləcək.

Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75-80%-də saxlanılacaq. Şəhərlə kənd arasında yaşayış standartlarındakı fərqlər azaldılacaq.

Göründüyü kimi, bu beşillikdə sosial inkişaf sahəsində inqilabi dəyişikliklərin baş verəcəyi gözlənilir. Azərbaycan bir sosial dövlət kimi, bu sahədə dünyanın qabaqcıl ölkələrindən bidir. Təsadüfi deyil ki, bu yaxınlarda beynəlxalq təşkilatlar tərəfindən ölkəmiz dünyada sosial ədalətlilik cəhətdən ən yaxşı ölkə kimi elan olunub. Bu bir daha göstərir ki, Azərbaycan artan iqtisadi gücündən əhalinin sosial müdafiəsinin təmin edilməsi üçün çox böyük miqyasda istifadə edir. Yaxın illərdə iqtisadi imkanların daha da artracağı şübhəsizdir, bu da dolayı yolla əhalinin sosial rifahının getdikcə daha yüksək səviyyədə olacağını deməyə əsas verir.

***Elçin***





**Vəli Vəliyev**

# Ölən son ümid

**Fransa Milli Assambleyasının sədri İrəvana gəldi və qısa müddətdən sonra qayıdıb öz məmləkətinə getdi. Bu səfər "kiçik bacısı"na qonaq gəlməkdən çox spikerin çapar kimi rolunu da təsdiqlədi. Yael Bron-Pivet Makronun Ermənistan rəhbərliyinə və ermənilərə birbaşa, necə deyərlər gözlərinin içinə baxa-baxa deyə bilməyəcəyi fikirləri hər kəsin yanında, mətbuatın önündə heç kimdən çəkinmədən deyə bildi. Əslində Ermənistan bu mövqeni Fransadan gözləyirdi. Bəd xəbər yüyrək olar, yaxud pis xəbərin atı yüyrək olar, deyib atalar. Ermənilər bəd xəbərin sorağını çoxdan almışdılar. Ona görə də səfər sanki formal xarakter daşıyırdı...**

Yadımıza ABŞ Konqresinin Nümayəndələr Paltasının keçmiş spikeri Nensi Pelosi (Nensi nənə) düşdü. Onun səfəri daha ajiotajlı keçdi. Hətta amerikalı spiker göz yaşları da axıda bilmişdi qəbristanlıqda. 44 günlük müharibədə ölən ermənilər üçün yox, 100 il bundan əvvəl olmayan, qondarma "soyqırımı" qurbanları üçün. Ermənistan rəhbərliyi o qədər inanmışdı ki, bu səfərin nəticələrinə, hətta İrəvanın ortasında Rusiyaya qarşı etiraz aksiyası keçirmişdilər, əzəli dostlarını, "böyük qardaşlarını" lənətləmişdilər və Rusiyanın Ermənistandan getməsini tələb etmişdilər. Səfərin təsiri altından qurtula bilməyən Ermənistan hakimiyyəti bu gün də Rusiyanı özünə düşmən hesab edir. Fransalı spikerin səfərə gələcəyi barədə ilkin xəbərlər yayılanda rəsmi İrəvan Qərbin dəstəyinin davamlı olacağı ümidi ilə anti-Rusiya ritorikasını davam etdirməklə yeni ağalarına xoş görünmək istəyirdi. Amma Pelosi tarixə gömüldü və ermənilərin Amerikaya inamı da eyni aqibəti yaşadı. Fransa isə...

Fransa Ermənistanın olub-qalan ümidlərinin üstündən xətt çəkdi. Paşinyan və komandası elə düşünürdü ki, Bron-Pivet öz gəlişi ilə çoxdan yığılıb qalmış, lakin İrəvanın gücünün yetmədiyi problemləri birdəfəlik həll edəcək, Laçın yolunu açacaq, Ermənistanın Qarabağda qurduğu separatçı rejimin leqallaşdırılmasına yardımçı olacaq. Bəzi ermənilər isə bir az da dərinə gedərək xanım spikerin səfəri zamanı özü ilə Fransanın Qarabağın müstəqilliyinin tanıması barədə rəsmi sənədi də gətirəcəynə ümidlənmişdilər. Amma ümidləri puç olan təkcə separatçı qurumun "rəhbərləri" yox, həm də Ermənistan rəhbərliyi oldu.

Fransa BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir. Nə qədər Ermənistanın qəyyumu, "böyük bacısı" rolunda çıxış etsə də, Azərbaycana qarşı ermənipərəst addımlar atsa da beynəlxalq qanunlara, BMT Nizamnaməsinə əməl etmək də bu ölkənin üzərinə götürdüyü öhdəliklərdəndir. Hər güclü dövlət istədiyi regionda, yaxud hər hansı ölkənin daxilində baş qaldıran separatçılığı dəstəkləsə, yaxud onu beynəlxalq hüququn subyekti kimi qəbul etsə, suverenliyini tanısa, onda dünyada mövcud olan ölkələrin sayı indikindən 5-10 dəfə çox olar. Ona görə də Fransada və Ermənistandakı ermənilərin təbliğatına uymaq, ciddiyə almaq lazım deyil. Ermələrin son ümidi də İrəvanda xanım spikerin keçirdiyi mətbuat konfransında öldü. Separatçı, ermənisayağı verilən suallar Bron-Pivet çox qısa və tutarlı cavab verdi. Bildirdi ki, Fransa qondarma respublikanın müstəqilliyini tanımır və tanımaq fikri də yoxdur. Çünki bu, Fransanın imkanları xaricindədir. Ermənilər bundan sonra bu barədə özlərini əziyyətə salmamalıdır. Çünki Fransanın özündə də müstəqillik əldə etmək üçün növbə gözləyən regionlar var. Fransa beynəlxalq hüququ əsas götürür və bu hüquq da qondarma rejimlərin tanınmasını qəbul etmir.

Bir az əvvələ, fransalı xanım spikerin İrəvana səfərinə və erməni həmkarı ilə görüşünə qayıdaq. Qonaqları salamlayan Alen Simonyan Yael Bron-Pivetin Fransa Milli Assambleyasının Ermənistana səfər edən ilk spikeri olduğunu qeyd edib və bu səfərin "tarixi" olduğunu bildirib. "Biz iki millətik, amma bir sivilizasiyayıq. Münasibətlərimiz mehriban və istidir, Fransa ölkəmiz və vətəndaşlarımız üçün əzizdir", - deyə Alen Simonyan bildirib. Simonyan az qala özünü fransızlarla tərəzinin eyni gözünə qoymağa cəhd edib. Əlavə edib ki, Azərbaycanın və onun müttəfiqi Türkiyəyə qarşı yalnız Ermənistan-Fransa həmrəyliyi və birliyi dayana bilər.

Simonyan 44 günlük müharibədən sonra Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamələri xatırladıb, Azərbaycana qarşı sanksiyalar təklif edən qətnamənin qəbulunu əlavə edib. Və bütün bunlarla Simonyan çalışıb ki, ermənilərin utopiyasını reallığa çevirmək üçün spiker həmkarının "saqqızını oğurlasın". Amma Nensi saladan fərqli olaraq fransalı xanım bir az sərt çıxıb və "dünən də, bu gün də, biz həmişə erməni xalqının tərəfində olacağıq" deyə onsuz da ölən erməni ümidlərinə qığılcım atıb.

Beləliklə Fransadan Ermənistana öldürücü zərbə vuruldu. O da məlum oldu ki, Fransa yalnız sözdə dostdur, maraqları naminə "kiçik bacısı"nı belə qumara qoyar. Axı, bura Fransadır, həm də Makronun Fransasıdır

BAXIŞ BUCAĞI

# Regionlardan gələnləri ittiham etmək yersizdir



**Həqiqətdə belədir ki, hər kəsin hərəkəti, ictimai yerlərdə özünüaparma tərzi onun mədəniyyətidir. Yəni ailədə gördüyü tərbiyənin inikasıdır. İstər böyük şəhərlər olsun, istərsə də rayonlar, ən ucqar kəndlər olsun, valideynin verdiyi tərbiyə, yəni evdə qazanılan ilkin tərbiyə həyatın bütün məqamlarında özünü büruzə verir. Biz zaman-zaman başlayırıq ya ucadan, ya da əl-qol hərəkətləri ilə danışmağa. Ya özümüzdən böyüklərə hörmətlə yanaşmağa, ya da ətrafdakı heç kimə məhəl qoymadan hərəkət etməyə, utanmadan, ar etmədən istədiyimiz kimi özümüzü aparmağa. Və ya bütün bunların əksinə olaraq ucqar kənddən gəlməyimizə baxmayaraq hərəkətimizlə, astadan, sakit danışığımızla, geyim tərzimizlə hər kəsə nümunə gücündə ola bilirik.**










Bu mənada ötən günlərdə jurnalist Həmid Həmidovun "Danışaq?" verilişinin qonağı olan aktyor Bəhram Bağırzadənin regionlardan Bakıya gələnləri şəhər həyatına uyğunlaşa bilməməkdə ittiham etməsi ilə qətiyyən razılaşmıram.

Birincisi, hər birimizin regionlarda bir evimiz-ata-baba yurdumuz var. Hər birimizin regionlarımızla bir bağlılığımız var. Biz Bakıda doğulsaq da, ata-anamız burada yaşasa da, atamızın atası, anamızın anası, yəni baba-nənələrimiz regionlarımızın birindəndir. Bizim əsl-kökümüzü onlar dünyaya gətirib, tərbiyə edib, həyata buraxıblar. Onlar da zamanla şəhərlərimizdə məskunlaşıblar. Belə olan halda regionlardan gələnlərin şəhər həyatına adaptasiya oluna bilməmələri ifadəsi nə qədər doğrudur, bunu sual etmək istəyirəm. Onlar nə üçün özlərini şəhərdə apara bilməsinlər, ucadan danışsınlar. Belə bir halın olması mümkündürmü? Məsələn, bir nəfər kəndlərimizdən hansındasa doğulub, gözəl ailə tərbiyəsi alıb, məktəbdə kənd müəllimləri tərəfindən təlim-tədris alıb, sonra isə təhsilini davam etdirmək üçün şəhərə gəlib. Burada nə üçün çığırmalıdır, nə üçün ucadan danışmaqla diqqətləri üzərinə toplamalıdır. Bu, heç düşünülən bir məsələdirmi?

Vurğulamaq istəyirəm ki, ucadan və ya alçaqdan danışmaq əsasən genetik xüsusiyyətdir ki, bu, insanın harada doğulmasından, yaşamasından asılı olmayaraq onda müşahidə olunur. Sonra isə özünəhörmət hissini itirmə mərhələsində ortaya çıxan problemlərdən biridir ki, bu da hər kəsdə baş vermir. Maraqlıdır, regionlarda məgər insanlar bir-biri ilə çığıra-çığıra danışırlar. Bu nə deməkdir? Vallah, bizim müəllimlərimiz olub ki, onların dərsini dinləmək üçün qulaq kəsdirmişik ki, onu eşidə bilək. Ucqar kəndlərimizdə ağzı yaşmaqlı bibi-xalalarımız, nənələrimiz olub ki, bir nəfər kişi xeylağı görəndə yaşmağı gözlərinə qədər qaldırıblar, bir söz soruşanda o qədər astadan cavab veriblər ki, onları eşitmək üçün dəfələrlə "nə dediniz",- deyə soruşulub.

Regionlarımızda, yəni rayon və kəndlərimizdə kişilər var ki, həyatı torpaqla keçib. Alnının tərini torpağa axıdıb, zəhməti ilə qazanıb, ailəsində 5-6, bəzən 7-8 övlad böyüdüb ki, hər biri cəmiyyətdə davranışı, hərəkəti ilə bir nümunədir.

Bu gün Bakıda yaşayanların əksəriyyəti həmin kişilərin oğulları, qızlarıdır. İndi bəs biz nə üçün öz kökümüzü bəyənməyib kəndlərdən şəhərlərə gələnlərin şəhər həyatına uyğunlaşa bilməməsini müzakirə edirik?

Bizim ata-babalarımız bu cür kişi və qadınlardan tərbiyə alıblarsa, belə olan təqdirdə biz nə üçün ucadan danışıb ətrafdakı insanların diqqətini çəkməliyik? Hələ üstəlik də onlara qarşı sayğısızlıq sərgiləməliyik? Daha sonra isə onların qınağı ilə rastlaşmalıyıq.

Bəli, yaşadığımız cəmiyyətdə elə yerlərdə oluruq, tədbirlərdə iştirak edirik ki, burada özümüzü xüsusilə həmin mühitə uyğun aparmalıyıq, çünki tələb belədir. Başa düşləndir ki, son vaxtlar cəmiyyətimizdə özünü apara bilməyən, daha doğrusu yerini bilməyən bəzi insanlarla rastlaşır, istər-istəməz əsəbi hal keçirir, onları qınayırıq.

Aktyorun dediklərindən:" Gənclər haqqında danışmaq istəyirəm. Bax, indi burada veriliş gedir. Zalda oturanlar o qədər də gənc deyillər. Onlar bilirlər ki, burada veriliş gedir, amma ucadan danışırlar. Hətta heç olmasa, hörmət qoymağı lazım hesab etmirlər. Əvvəllər bu hörmət var idi". Bəli, bu fikirlərlə razılaşmamaq mümkün deyil. Çünki indi çox yerlərdə ucadan danışan, bütün diqqətləri üzərinə çəkən həm gənclərlə, həm də orta yaşlı insanlarla raztlaşırıq. Bu, indi belə deyil, bütün zamanlarda olub. Kimsə deyə bilməz ki, sovet quruluşu illərində küçədə, parkda, metroda, marşrut avtobuslarda, təhsil müəssisələrində tam sükut hökm sürüb. Hər kəs bir-biri ilə pıçıltı ilə danışıb. Həmin dövrü yaşamış bizlər elə o dövrdə də həm kafe-restoranlarda, həm mağaza-gözəllik salonlarında, həm küçə və parklarda, universitet dəhlizlərində ucadan danışan, yaxınlıqdakı insanlara məhəl qoymayan insanlarla qarşılaşmışıq. Bu üzdən də vurğulamaq istəyirəm ki, hər kəs adıçəkilən məkanlarda öz ailə tərbiyəsini nümayiş etdirir. Bu tərbiyəni nümayiş etdirənlər isə tək regionlardan Bakıya gələnlər deyil, bunlar arasında məhz Bakıda doğulub, böyüyüb, təhsil alanlar da var. Deməli, ucadan danışmağın səbəbini regionlarda, şəhərlərdə deyil, müasir dövrün bəzi problemlərində axtarmaq lazımdır.

Aktyorun fikirləri: "Bakıya gələn insanlar urbanizasiya prosesini keçə bilmirlər. Görürsüz, onlar hətta restoranda çox ucadan danışırlar. Belə bir ifadə var, şəhər öz memarlığı il gözəldir, amma şəhər birinci növbədə orada yaşayan insanlarla gözəldir. Son 25 ildə şəhər çox dəyişib. Rayondan gələnlər şəhərə adaptasiya ola bilmirlər. Bu, bizim günahımızdır. Biz susuruq, onlara demirik ki, uşaqlar, restoranda belə danışmaq olmaz".

Bəli, tək şəhər yox, həyat gözəldir. Bu həyat isə həm rayon, həm kənd, həm də şəhərlərimizlə gözəldir. Bu yaşayış yerləri isə təbii ki, insanları ilə mənalıdır, rəngarəngdir. İnsansız nə şəhər, nə kənd...

Bir də ki, insanı mühüt də tərbiyə edir, deyirlər. Rayon və kəndlərdə şəhərlərimizdən fərqli sakit bir mühit var. İnsanlar da təbii ki, həmin mühitə uyğun sakit təbiətli ola bilirlər. Şəhərlərimizdə də səs-küy, maşınların siqnalı, çox halda maşınların qapı-pəncərəsini yarıb bayıra "bomba" kimi düşən musiqi səsi ola bilər ki, bəzi insanları daha ucadan danışmağa vadar edər ki, bir-birilərini eşitsinlər.

Bütün bunlara görə də nə üçün rayondan gələnlər şəhərə adaptasiya ola bilməsinlər? Bu, çox yanlış fikirdir. Kəndlərimizlə şəhərlərimiz arasındakı bağı qoparmaq, ortaya ayrıseçkilik atmaq deməkdir.

Yaxşı olar ki, bütün söhbətlərimizdə, istər regionlarımızdan, istər şəhərlərimizdən, istər gənclərdən, istərsə də orta yaş qrupundan olan insanlardan danışarkən, "bəzi" ifadəsini işlədək. Çünki bəzilərimiz ucadan danışırıq, özümüzü apara bilmirik. Bəzilərimiz şəhərlərə adaptasiya oluna bilmirik. Bəzilərimz şəhərdə doğulsaq da, şəhərdə yaşasaq da, özümüzü apara bilmirik. Bəzilərimiz kənddən gəlib şəhərə uyğunlaşa bilmirik.

Bəzilərimiz, yalnız bəzilərimiz. Bu, həm də tək ucadan danışmaqda deyil, bütün mənalarda belədir.

***Mətanət Məmmədova***

## Katolikos I Aram: "Erməni diasporu Qarabağa marağını itirib"



Kilikiyanın patriarxı I Aram Ermənistan-Qarabağ-Diaspor üçlüyünün üzləşdiyi ciddi təhlükələrdən və çağırışlardan narahat olduğunu bildirib. Onun TV-yə verdiyi açıqlamaya görə, diaspor artıq tükənmə prosesindədir və təcili yenidən təşkil edilməlidir. O, özünə və Ermənistana qarşı biganə olub, xüsusən də son illərdə Qaabağda 44 günlük müharibədən sonra...

Gənclərə gəlincə, I Arama görə, onlar kilsə və milli həyatdan, bizim kollektiv həyatdan xeyli uzaqlaşıblar. Eyni zamanda, katolikos qloballaşmanın erməni xalqının həyatına təsirinin artdığını qeyd edib: "Bundan sonra biz icmalarımızın ətrafında divarlar çəkə və təcrid olunmuş vəziyyətdə yaşaya bilmərik. Keçmişdə dilimiz, mədəniyyətimiz, adət-ənənələrimiz kimliyimizi təmin edib, möhkəmləndirib. Qloballaşma bütün xalqların həyatında mümkün olan bütün maneələri və sərhədləri məhv etdi, biz çoxirqli, çoxkonfessiyalı, çoxmillətli cəmiyyətdə yaşamalı olacağıq".

O vurğulayıb ki, indiki şəraitdə öz şəxsiyyətinin və quruluşunun, adət-ənənələrinin və dəyərlərinin qorunub saxlanması və qorunması faktiki olaraq, xüsusən də kiçik xalqlar arasında gündəlik mübarizəyə çevrilib: "Ona görə də, təbii ki, öz əsas dəyərlərimizə və ideallarımıza sadiq qalaraq, yeni zamana və yeni imperativlərə uyğun yeni yanaşmalar hazırlamaq lazımdır".

ŞƏRH+AKTUAL

# ”Siyasi partiyalar haqqında qanun” - siyasi rentabelliyin və demokratik dəyərlərin təntənəsi

Biz sözügedən prosesə doğru atılan hər bir addımda, dövlətçiliyimizin daha da güclənməsi yönündə, müstəqilliyimizin daha da möhkəmlənməsi naminə mütərəqqi addımlarımızı genişləndirməliyik və həmin proses Prezident İlham Əliyevin rəhbərliyi ilə və müdrik siyasəti sayəsində davam edir

**Milli Məclisin 16 dekabr 2022-ci il tarixli iclasında ”Siyasi partiyalar haqqında” yeni qanun böyük səs çoxluğu ilə qəbul edildi. Beləliklə, Azərbaycanda siyasi partiyalarla münasibəti tənzimləyən, iqtidar-müxalifət dialoqunu yeni müstəviyə daşıyan hüquqi-normativ aktın bazası daha da gücləndirildi. Bu faktor eyni zamanda, ölkəmizdə reallaşdırılan davamlı, ardıcıl siyasi islahatların məntiqi nəticəsidir.**



*Muxtar NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri*

### Bu qanunla Azərbaycanın siyasi institutları öz inkişafının tarixi bir mərhələsinə yekun vurub, yeni siyasi reallıqlara və dəyişikliyə qədəm qoyacaqlar

Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələrinin ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciətindən sonra yeni layinənin işlənməsinə srart verildi. Parlamentin plenar iclasları ilə paralel olaraq ictimai-siyasi institutlarda da onun müzakirələri aparıldı. Müzakirələrdə çıxış edən siyasi partiya liderlərinin mövcud problemlərin, qarşıda duran məsələlərin həlli baxımından qanun layihəsinə öz münasibətlərini bildirmələri, onun ayrı-ayrı müddəaları barədə konkret rəy və təkliflərini səsləndirmələri üçün geniş şərait yaradıldı. Qəbul olunmuş yeni qanun partiyaların fəaliyyətinin təkmilləşməsi, funksiya və fəaliyyət dairələrinin genişlənməsi və dinamik hüquqi tənzimlənməsi məqsədi daşıyır. Bu qanunla Azərbaycanın siyasi institutları öz inkişafının tarixi bir mərhələsinə yekun vurub, yeni siyasi reallıqlara və dəyişikliyə qədəm qoyacaqlar. Yeni qanun həm də cənab Prezidentin apardığı siyasi islahatların məntiqinə əsaslanır.

### ”Siyasi partiyalar haqqında” yeni qanunun hazırlanması zamanın tələbi kimi qiymətləndirilir və eyni zamanda, Azərbaycanda dövlətçilik ənənələrinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır

Lakin daha bir xüsusi məqamı da vurğulamaq yerinə düşərdi ki, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ”Siyasi partiyalar haqqında” yeni qanunun hazırlanması zamanın tələbi kimi qitmətləndirilir və eyni zamanda, Azərbaycanda dövlətçilik ənənələrinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Məlum olduğu kimi, hazırkı ”Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanunu 30 il bundan əvvəl - 1992-ci il 3 iyun tarixində qəbul edilmişdi və dünyada cərəyan edən qlobal dəyişikliklər istər-istəməz ölkəmizə də öz təsirlərini göstərirdi. Bu xüsusda, qanunlar silsiləsində ”Siyasi partiyalar haqqında” qanunun da dəyişdirilərək daha modern şərtlərə uyğunlaşdırılması öz vacibliyini göstərirdi. Ona görə də, dünyada cərəyan edən proseslər, ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiya, müasir çağırışlar, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən zəruri addımların atılmasını və ”Siyasi partiyalar haqqında” yeni qanunun hazırlanmasını labud edirdi.

### Yeni qanun layihəsinin hazırlanması prosesinə demokratik və şəffaf şəkildə başlanıldı

Digər tərəfdən, qeyd olunanlar nəzərə alınaraq, Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət etdilər ki, məhz həmin müraciət yeni mühitin və demokratik dəyərlərin inkişafına tərəf atılan addım kimi dəyərləndirilir.

Nəticədə isə yeni qanun layihəsinin hazırlanması prosesinə demokratik və şəffaf şəkildə başlanıldı. İlk dəfə olaraq qanun layihəsi Milli Məclisin plenar iclasına, həmçinin komitələrin iclasına çıxarılmazdan əvvəl Milli Məclisin saytında yerləşdirildi. Oktyabrın 24-də isə Milli Məclisdə partiya rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə geniş dinləmə keçirildi, bir sıra iradlar və tənqidlər bildirildi. Təbii ki, həmin məsələlərdən qaynaqlanan və müsbət yöndə təhlil edilən hər bir faktor dərindən araşdırıldı, sonda münbit nəticəyə gəlindi.

### Bu qanun layihəsinin Konstitusiyaya və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olması, o cümlədən birləşmək azadlığı hüququnu özündə ehtiva etməsinə imkan yaradır

Onu da qeyd etmək lazımdır ki, keçirilən bütün ictimai dinləmə və müzakirələr Milli Məclisin müzakirələrə açıq olduğunu nümayiş etdirdi ki, bu reallıq da Azərbaycanın siyasi mühitində bilavasitə demokratik dəyərlərə sadiqliyin göstəricisi kimi analaşılır. Digər tərəfdən, qanun layihəsinin hazırlanması zamanı siyasi partiyalardan daxil olan təkliflər nəzərə alınıb, beynəlxalq təcrübəyə istinad edilib ki, bu da layihənin əhəmiyyətini göstərən əsas faktorlardan hesab olunur.

Siyasi partiyaların ictimai müzakirələr zamanı səsləndirdiyi fikirlərin sənəddə öz əksini tapması da bir daha təsdiq edir ki, yeni layihə siyasi mühitdə islahatların davam etdirilməsinə təkan verəcək. Bu qanun layihəsinin Konstitusiyaya və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olması, o cümlədən birləşmək azadlığı hüququnu özündə ehtiva etməsinə imkan yaradır.

### Məntiqi nəticə isə budur: heç şübhəsiz ki, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin müxtəlif platformalarda müzakirəsi, irad və təkliflərin nəzərə alınması çox müsbət haldır və gələcəkdə bu tendensiyanın davam etdirilməsi sosial sifarişin təzahürüdür!

Əbəs deyil ki, ölkəmizdə fəaliyyət göstərən onlarla siyasi təşkilatlar və onların rəhbərləri də bəyan edirlər ki, məhz siyasi plüralizmin hökm sürdüyü dinləmələrdə layihə ilə bağlı təmsil edilən müxtəlif partiya üzvləri öz iradələrini sərbəst ifadə etmək imkanı əldə etdilər. Müzakirələrdə çıxış edən siyasi partiya liderlərinin mövcud problemlərin, qarşıda duran məsələlərin həlli baxımından qanun layihəsinə öz münasibətlərini bildirmələri, onun ayrı-ayrı müddəaları barədə konkret rəy və təkliflərini səsləndirmələri üçün geniş şərait yaradıldı.

Həmçinin, ötən il noyabrın 23-də Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclası keçirildi. Tədbirdə parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri və üzvləri olan deputatlar iştirak edərək qanun layihəsinə edilən dəyişikləri yüksək qiymətləndirdilər.

Məntiqi nəticə isə budur: heç şübhəsiz ki, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin müxtəlif platformalarda müzakirəsi, irad və təkliflərin nəzərə alınması çox müsbət haldır və gələcəkdə bu tendensiyanın davam etdirilməsi sosial sifarişin təzahürüdür!

### Ümummilli məsələlərdə əksər siyasi partiyaların vahid mövqe nümayiş etdirməsi də məhz bu əməkdaşlığın nəticəsidir

Daha bir mühüm məqamı da qeyd etmək lazımdır ki, əvvəlki müzakirələrdəki tənqidlərin bir çoxu yeni layihədə artıq çıxarıldı, bir çox irad və təkliflər nəzərə alındı. Ona görə də tam əminliklə deyə bilərik ki, sənədin yenilənməsi zamanı layihədə çox ciddi dəyişikliklər edildi. Misal üçün, seçkilərdə 2 və ya 3 dəfə iştirak etməyən partiyaların qeydiyyatının ləğv edilməsi ilə bağlı müddəalar layihədən çıxarıldı. Eyni zamanda, Azərbaycanda ilk dəfə dövlət hər hansı kvota qoymadan, yəni 3 faizlik baryer müəyyənləşdirmədən seçki prosesinə marağı artırmaq və beləliklə, siyasi rəqabəti gücləndirmək, təbliğat və təşviqat prosesini genişləndirmək, hər vətəndaş səsi uğrunda mübarizə aparmaq, seçiciləri ayrılıqda deyil, nizami və strukturlaşmış partiyalara cəlb etmək üçün Avropa siyasi təcrübəsində geniş tətbiq olunan bir model qanunvericiliyə daxil edildi.

Ümummilli məsələlərdə əksər siyasi partiyaların vahid mövqe nümayiş etdirməsi də məhz bu əməkdaşlığın nəticəsidir. Siyasi arenada islahatların davam etdirilməsi ilə bağlı ölkədəki güclü siyasi iradə mövqeyindən asılı olmayaraq bütün dövlətçi partiyalar üçün yeni imkanlar yaradır. Bu qanunun qəbul edilməsi həmin imkanları daha da gücləndirəcək.

### Yeni qanun layihəsi cəmiyyətdə yeni çağırışların, sürətli baş verən hadisələrin, sosial-siyasi tələblərin fonunda Azərbaycanda dövlətlə siyasi partiyalar arasında əməkdaşlığın güclənməsinə, siyasi dialoq mədəniyyətinin yüksəlməsinə mühüm töhfə verəcək

Beləliklə, proseslərin təhlili də onu da göstərir ki, bizi qarşıda yeni çağırışlar, demokratik mühitin daha geniş imkanlara malik olması istiqamətində növbəti yeni uğurlar gözləyir. Məhz bu baxımdan, onu da vurğulamalıyıq ki, biz sözügedən prosesə doğru atılan hər bir addımda, dövlətçiliyimizin daha da güclənməsi yönündə, müstəqilliyimizin daha da möhkəmlənməsi naminə mütərəqqi addımlarımızı genişləndirməliyik və həmin proses Prezident İlham Əliyevin rəhbərliyi ilə və müdrik siyasəti sayəsində davam edir.

Sonda isə daha bir nüansı da qeyd etmək lazımdır ki, yeni qanun layihəsi cəmiyyətdə yeni çağırışların, sürətli baş verən hadisələrin, sosial-siyasi tələblərin fonunda Azərbaycanda dövlətlə siyasi partiyalar arasında əməkdaşlığın güclənməsinə, siyasi dialoq mədəniyyətinin yüksəlməsinə mühüm töhfə verəcək.

## “Hər bir azərbaycanlının ürəyi aktivistlərin yanındadır”



“2022-ci il dekabr ayının 12-dən etibarən Şuşa-Xankəndi yolunda Azərbaycan aktivistlərinin ekoloji terrorun dayandırılması tələbilə aksiyası keçirilir. Soyuq, şaxtalı bir havanın olmasına baxmayaraq aktivistlərin aksiyası davam edir”. Bunu ”Səs” qəzetinə açıqlamasında Təkamül partiyasının sədri Teyyub Qənioğlu deyib.

Onun sözlərinə görə, hər bir azərbaycanlının ürəyi aktivistlərin yanındadır: ”Bu aksiya çox ümidverici bir aksiyadır. Hesab edirik ki, bu aksiya inşallah yaxın zamanda qalibiyyətlə sona çatacaqdır. Aksiyanın tələbi Qarabağ iqtisadi rayonda ekoloji terrora son qoyulmasıdır. Məlumdur ki, üçtərəfli sazişə uyğun olaraq indiyə qədər Rusiya bədməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərimizdə erməni silahlı qüvvələri, quldur dəstələri çıxarılmalı idi. Amma buna baxmayaraq indiyə qədər nəinki quldur dəstələri ərazini tərk etməyib, hətta son iki ildən artıq bir müddətdə, əksinə, onların silahlandırılması həyatda keçirilir. Silah daşınması Laçın - Şuşa yolundan həyata keçirilir. İndi ermənilər və onların Qərbdə olan himayədarları hay-küy qaldırırlar ki, guya Xankəndidə yaşayan ermənilər humanitar böhtanla üzləşiblər”.

”Hay-küyün əsas səbəbi nədir” sualına cavab olaraq T.Qənioğlu bildirdi ki, bizim aktivistlər bu yoldan keçən qeyri-qanuni yükdaşınmalarının hərəkətinə icazə vermirlər: ”Yeni Qarabağ iqtisadi zonasında təbii sərvətlərimizi talayan separatçılara həmin yoldan keçmələrinə icazə vermirlər. Bundan başqa, həmin əraziyə Ermənistandan silah sursat daşınmasının da qarşısı alınır. Ermənilərin və onların havadarlarını da narahat edən əsl məsələ budur. Hesab edirik ki, bu dinc aksiya təqdirəlayiqdir və biz həmin iştirakçıları dəstəkləyirik, onları alqışlayırıq və əminəm ki, tezliklə biz öz istəyimizə çatacağıq”.

**Gülyana**

SİYASİ | RAKURS+ÖZƏL

# Stəkanda fırtına - Qarabağ ermənilərinin xuntası necə məhv olur?

## Tanınmış politoloqdan maraqlı şərh



Son bir neçə gündür ki, Qarabağ separatçıları arasında kəskin qarşıdurmalar müşahidə olunur. Daha dəqiq desək, Qarabağ ermənilərinin xunta başçısı Araik Arutyunyanla "dövlət naziri", bir çoxları tərəfindən dələduz kimi tanınan Ruben Vardanyan arasında yaşanan qalmaqallar özünün pik həddinə çatıb. Ziddiyyətlərə səbəb olan ilk məsələ Vardanyanın Arutyunyaınn təyin etdiyi şəxsləri "vəzifələrindən" istefaya göndərməsidir. Digər səbəb isə Vardanyanın açıq-aşkar Azərbaycan hakimiyyətinə qarşı "kəllə atmaq" cəhdləridir ki, bu amil Araik Arutyunyanı ciddi şəkildə narahat etməyə başladıb. Və bütün bunların təfsilatlı şəkildə izahı bir reallığı ehtiva edir - artıq separatçı rejimin cinayətkar fəaliyyətinin sonudur və tezliklə Xankəndi Bakının yuruduksiyası altına keçəcək. Amma buna qədər baş verən proseslərin daha dərindən araşdırılması da maraqdoğurucudur. Məhz bu baxımdan, tanınmış politoloq Fərhad Məmmədovun teleqram səhifəsində yazdığı şərhinə diqqət yetirmək kifayət edər.

### Balasanyanın "təhlükəsizlik şurası katibliyindən" kənarlaşdırılması şəxslərarası açıq qarşıdurmalara təkan verdi

Onun qeydlərinə görə, bütövlükdə Qarabağ separatçıları arasında baş verənlər birbaşa Laçın yolu üzərində bir aydan çoxdur ki, davam edən ekoaksiya ilə əlaqələndirilir. Belə ki, yeni reallıq Ermənistan və Qarabağ erməniləri tərəfindən cavab reaksiyası ilə formalaşdırılmalıdır, lakin sən demə Vardanyanın təxribatçı xarakterli "mübarizə aparmaq" bəyanatlarından başqa alternativ düşüncələr də var imiş və məhz bu alternativlik cinayətkar rejimin rəhbərliyi arasında kəskin fikir ayrılıqlarına səbəb olub.

SİTAT: "Balasanyanın "təhlükəsizlik şurası katibliyindən" kənarlaşdırılması şəxslərarası açıq qarşıdurmalara təkan verdi. İşə blogerlər, siyasətçilər qarışdılar ki, onlar əsas aktorlarla bağlı messeclər səsləndirdilər. Belə bir qarmaqarışıqlıqda Qarabağ ermənilərinə





rəhbərlik edən xunta təmsilçilərinə suallar ünvanlandı: bəs kim əlaqələndirici şəxs olacaq? Bakının tələbləri ilə bağlı nə etməyə çalışırlar? Yaxın berspektivdə nə baş verəcək? Bu suallar ətrafında kütləvi cavablar oldu. Onlardan nəticə hasil etməyə çalışaq...".

### Əlaqələndirici şəxs kim olacaq?

Fərhad Məmmədova görə, Vardanyanın ortaya çıxması və idarəçiliyin uzurpasiyası "dövlət nazirinin" mövqeyini həlledici etdi. Varanyanı Bakıdan blok etdilər və anlatdılar ki, onunla hətta asfalt döşəyən səviyyəsində də danışılmayacaq. SİTAT: "Lakin mümkündür ki, başqa təmsilçi olsun və onunla kontakta da getmək olar. Ancaq Vardanyan bir az da irəliyə gedərək mümkün olan əlaqələri də pozdu və hər şeyi özünə tərəf çəkdi. Cavabında Bakının tələbi irəli sürüldü ki, Vardanyan Qarabağı tərk etməlidir".

Politoloqa görə, hətta əlaqələndirici şəxs tapılarsa belə, Rusiyanın Azərbaycan ərazisindəki əsas ofşorçusunun Bakı ilə kontaktlarda iştirakı mümkünsüzlüyə çevrildi. Bu səbəbdən informasiya məkanında Vardanyanın istefaya göndərilməsi çağırışları səslənməyə başlandı. Bu isə Araik Arutyunyanın "səlahiyyətində" olan məsələdir.

Yəni "dövlət naziri" adlı vəzifə seçilən deyil, təyin olunandır. SİTAT: "Burada hətta "DİN" timsalındakı Karen Sarqsyanı əvəzləyici kimi də tapdılar. Yeri gəlmişkən, çox maraqlı fiqurdur... Koçaryanın həyatda olmayan əsas cangüdəninin oğlu. Həmin cangüdən yerli, qarabağlı olub və Koçaryan "prezident" olduğu dövrlərdə - müharibədən əvvəl və sonra "FHN"nin "başçısı" kimi fəaliyyət göstərib, yəni belə desək, döyüşməyib, Azərbaycan tərəfi ilə kontaktlara gedərək həlak olanların nəşlərinin axtarışında iştirak edib..."

Politoloq qeyd edir ki, sonuncu qalmaqaldan sonra Vardanyan öz mövqeyində qalmağı davam etməyi bacaracaqsa Bakı əlavə tədbirlər görməli olacaq, yəni təsir etməli olacaq.

### Bakının tələbləri?

"Və burada belə bir informasiya da var ki, yataqlardakı infrastrukturu sökməyə başlayıblar", deyə qeyd edən Fərhad Məmmədova görə, birincisi bu "Leqo" oyuncaq konstruktoru deyil ki, belə bir sənaye gücü asanlıqla yığılıb-sökülsün. SİTAT: "Azərbaycanın dövlət strukturlarının nümayəndələri birbaşa əraziyə daxil olmalıdırlar ki, bu mövzu aradan qaldırılsın - möhür vurmalı və sonradan yoxlanılmalıdır ki, həmin möhürə müdaxilə olunmasın... İstənilən digər fəaliyyətlər isə sadəcə qəbul edilməyəcək. Hər şey artıq o qədər dərinə qədər gedib ki, onları kosmetik fəaliyyətlə də ört-basdır etmək qeyri-mümkündür".

### Perspektiv necə olacaq?

Beləliklə, politoloq onu da bildirib ki, çölə "seçkilər" barədə söz-söhbətlər atıldı və sonradan həmin fikirlərdən imtina olundu. SİTAT: "Bu cür ehtimal edə bilərəm, "seçkilər" elə bir mövzuya çevrilə bilər ki, həmin mövzu bir tərəfdən Qarabağ ermənilərini paralizə edəcək, başqa tərəfdən isə Azərbaycana birtərəfli fəaliyyətə keçmək üçün səbəb yaradacaq. Mənim nəzərimcə, seçkilərlə bağlı istənilən fəaliyyət Qarabağ erməniləri üçün yolverilməzdir. Belə isə... hələ ki, Qarabağ ermənilərinə rəhbərlik edən xuntanı asılı, daha dəqiq desək, sallaq vəziyyətdə saxlayır".

*Rövşən RƏSULOV*

---



Mətanət MƏMMƏDOVA

# Qırmızı inqilab

İranda molla rejiminə qarşı ötən ilin sentyabr ayından başlanan etiraz mitinqlərinin hazırda inqilab səviyyəsinə yüksəldiyi bir məhrələdə İran əsilli amerikalı aktrisa və müğənni Sepide Moafinin "Qızıl Qlobus" film mükafatlarının təqdimetmə marasimindəki geyimi həqiqətən maraqlı oldu və çox da yerinə düşdü. Bu, İranda inqilabın qırmızı rənglə, yəni qələbə ilə bitəcəyinə bir istək və gözləntidir.

İranlı-amerikalı rəssam Əmir Tağının dizayn etdiyi libasın üzərindəki qırmızı gülün ləçəklərində molla rejiminin edam etdiyi 4 nəfərin və öldürülmə təhlükəsi altında olanların adları yazılması gülün inqilabdan sonra ölkənin çiçəklənəcəyinə, libasın qara rəngi kimi buludların yox olacağı ilə xarakterizə edilib.

Hansı ki, vaxtilə aktrisanın da valideynlərinin yaxın dostları və ailəsi İran İslam Respublikasındakı məlum rejimin qurbanı olmuş, bu səbəbdən onun valideynləri İranı tərk etməyə məcbur qalmış, Türkiyədə və Almaniyada qaçqın düşərgəsində yaşamalı olmuşlar. Elə aktrisa da Almaniyadakı düşərgələrdən birində anadan olmuşdur. Sepide Moafi ürək ağrısı ilə vurğulayır ki, biz nəhayət, ABŞ-a gələ bildik və evə bənzəyən, lakin heç vaxt öz evimiz kimi hiss etmədiyimiz mülk tikə bildik. Özümü layiq olmadığımı hiss etdiyim və ya niyə deyə soruşduğum anlarda anamın səsini eşidirəm: "Səbəbini soruşma, sadəcə təşəkkür et". Bu o anlama gəlir ki, görün ailə İranda nə qədər zülmlə qarşılaşmışdır ki, ana qızına sadəcə təşəkkür etməyi məsləhət bilir.

Qeyd edək ki, aylar öncə İranda 22 yaşlı Məhsa Əmininin yaşadığı acı tale, döyülərək güclü xəsarət alması, təhqir olunması insanları ayağa qaldırdı. Hansı ki, indiyədək İranda yüzlərlə, bəlkə də minlərlə qadın belə zorakılıqlarla üzləşmiş, onların baş örtüyü boğazlarının kəndirinə çevrilib həyatlarını sonlandırmışdı.

Əslində səbr kasası çoxdan dolmuşdu. Lakin insanların azadlığını, hüququnu əlindən alan, onların hər bir hərəkətini, danışdığı sözü ağır cəza ilə cəzalandıran molla rejimi səsi çıxanları çoxsaylı gecələrin gedər-gəlməzinə göndərmişdi.

Məshasanın ağır cinayətin qurbanı olması isə İranda inqilabın başlanma səbəbi oldu. "Ta bəsdir, zülm bu qədər yetər, təhqir bu qədər yetər",- deyən insanlar günahsız Məhsanın zorakılığın qurbanı olmasına dözməyərək səslərini qaldırdılar. Bu səsləri yerindəcə boğmaq istəyənlər isə bilmədilər ki, artıq dövr o dövr deyil. İnsanların səbri daşıb, canları boğazlarına yığılıb.

Beləliklə İran vətəndaşlarının etiraz mitinqləri gündən-günə genişləndi və inqilab səviyyəsinə gəlib çıxdı. Molla rejiminin insanların başına açdığı oyunlar, hədsiz sayda sosial problemlər, üstü ört-basdır edilmiş cinayətlər bu inqilabın əsas mövzusu oldu.

Nəticədə isə molla rejimi özünü müdafiə etmək, hakimiyyəti əldə saxlamaq üçün kütləvi həbslərə, edamlara başladı. Bütün bunların qarşısında isə etirazçıların sayı gündən-günə daha da artdı, ölkədə milli-azadlıq hərəkatı başladı.

Hüquq və azadlıqlarının bərpa olunmasını tələb edən, illərlə əsarət altında saxlanılan, bir çox sosial hüquqlardan məhrum olan insanları sakitləşdirmək üçün bu dəfə də moill rejimi yeni özünümüdafiə vasitəsinə əl atdı. Belə ki, etirazçıları yenidən özünə tabe etdirmək üçün ölkədə əmək haqqı və pensiyaçılar artırıldı. Amma dövlət fondunun real ehtiyatının olmadığını, rejimin qərarı ilə ancaq dəstəksiz pul əskinasları çap edildiyini, bunun da nəticəsində inflyasiyanın daha da kəskinləşəcəyini bilən insanlar bunun əhəmiyyətsiz bir addım olduğunu molla rejiminin üzünə çırpdılar. Gözləntilər isə budur ki, İranda iqtisadi vəziyyət daha da kəskinləşəcək, bu da inqilabın daha da alovlanmasına şərait yaradacaq.

İranda inqilabçıların edam edilməsi hələ də bu rejimin diktatorluqdan əsla vaz keçmədiyini, bu qayda ilə hakimiyyəti qorumaq niyyətində olduğunu ortaya qoyur. Aparıcı Avropa ölkələrinin və bir sıra beynəlxalq təşkilatların edamlara qarşı narazılıq bəyanatlarına baxmayaraq bunun davam etdirilməsi isə İranın bütün dünyaya qarşı saygısızlığını, "işimə qarışma" cavabının göstəricidir. Eyni zamanda insan amilinə qarşı beynəlxalq cinayətdir.

Bəli, İranda baş verən inqilabın nəticəsinin bu rejiminin qurbanlarından olan Sepide Moafinin üzərində daşıdığı paltarındakı gül rəngdə-qırmızı rəngdə olması bütün İran vətəndaşlarının arzudur. Bu, orada hüquqları pozulan, öz dilində danışması, təhsil alması yasaq edilən və digər sosial problemlər yaşayan iranlılar üçün həm də bütün insanların arzudur. Çox yaxında bu inqilabın qıpqırmızı çiçək rəngli nəticəsini görməyimiz diləyilə...

# “Ermənilərin ”dəmir yumruq” istəmələri göz qabağındadır”

**“Paşinyan erməni KİV-lərinə açıqlamasında növbəti dəfə bəyan eləyib ki, Azərbaycanla Ermənistan arasında etimad mühiti yaransa, sülh sazişi imzalana bilər. Etimad mühitinin yaranması üçün ilk növbədə, dövlətlərin rəhbərləri arasında qarşılıqlı inam olmalıdır”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**



Onun sözlərinə görə, liderlər atdıqları imzaya hörmət etməli, götürdükləri öhdəlikləri dönmədən icra etməlidirlər: ”Çox təəssüf ki, Ermənistanın baş naziri belə liderlərdən deyil və Azərbaycan Prezidentindən fərqli olaraq o, hakimiyyətdə olduğu qısa müddət ərzində özünü güvənilməz şəxs kimi tanıdıb. Məlumdur ki, özünə ”dqr” deyən qurumu dünyada heç kim, hətta Ermənistan belə tanımayıb. Parlamentin iki dəfə müraciət etməsinə baxmayaraq Fransa da belə bir addımı atmağa cəsarət etməyib. Digər tərəfdən, ötən ilin dekabrında əvvəlcə Praqada Avropa İttifaqı, Fransa və Ermənistan, sonra Soçidə Rusiya Azərbaycanın bütün ərazisində, yəni, həm də Qarabağ üzərində suverenliyini tanıdı. Bu ərazidə xarici siyasətin yalnız Azərbaycan hakimiyyəti tərəfindən həyata keçirildiyini qəbul etdi. Həmin günlərdə Qarabağ ermənilərini təmsil etdiyini iddia edən Ruben Vardanyan Azərbaycanın tərkibində olmayacaqlarını və ”müstəqilliyi” qorumaq naminə döyüşməyə hazır olduqlarını bəyan etdi.

A.Səmədov onu da bildirdi ki, bu ilin əvvəlində mətbuat konfransı keçirən N.Paşinyan xəcalət çəkmədən ”Qarabağla aramızda fikir ayrılığı yoxdur”-dedi və nə qədər sürüşkən, güvənilməsi mümkün olmayan siyasətçi olduğunu bir daha nümayiş etdirdi. ”Nəhayət, Ermənistan hakimiyyətinin son təxribatçı addımı-yanvarın 14-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın uydurma ”dqr”in yeni ”xarici işlər naziri” Arsen Qazaryanı bu ”vəzifəyə” təyin olunması münasibətilə təbrik etməsi, ”qarabağlı həmkarı ilə Laçın dəhlizinin bağlanması nəticəsində yaranmış vəziyyəti” müzakirə edib və ona ”fəaliyyəti”ndə uğurlar arzulaması bu dövlətin beynəlxalq hüquqa və imzaladığı sənədlərə nə qədər etinasız yanaşdığının daha bir nümunəsidir. Düşünürəm ki, Xarici İşlər Nazirliyimiz bu məsələyə kəskin reaksiya verməli, Ermənistanın beynəlxalq hüquqa zidd addımı dünya birliyinin, ilk növbədə, Praqada və Soçidə Azərbaycanın suverenliyini öz imzaları ilə təsdiq etmiş nüfuzlu qurumların və dövlətlərin diqqətinə çatdırılmalıdır. Laçın dəhlizində gömrük orqanlarımızın və sərhəd xidmətinin postlarının qurulmasını artıq ləngitmək olmaz. Bu addımlar qısa müddətdə atılmalı və hər kəsə izah olunmalıdır ki, Laçın dəhlizi eksterretorial deyildir və bu barədə heç bir razılaşma, yaxud beynəlxalq konvensiya yoxdur. Nəhayət, deməliyik ki, ermənilərin ”dəmir yumruq” istəmələri göz qabağındadır. Güman edirəm ki, Qarabağda antiterror əməliyyatı keçirməyin vaxtı artıq çatmışdır. Sadəcə olaraq bu addım son dərəcə diqqətlə hazırlanmalıdır. Elə etməliyik ki, beynəlxalq birlik, erməni dəstəkçiləri nə qədər çalışsalar da Azərbaycanın haqlı olduğunu inkar edə bilməsinlər”.

***Gülyana***

# “Söz söz olunca” - şair-publisist Tahir Talıblıdan möhtəşəm yenilik



Tanınmış şair - publisist , əməkdar jurnalist Tahir Talıblının yeni ”Söz söz olunca” kitabı işıq üzü görüb. Kitabın redaktoru tanınmış yazıçı Soylu Atalıdır. Kitabın birinci bölümündə şeirlər, ikinci bölümündə isə, illərdir Azərbaycan radiosunda sevə-sevə dinlədiyimiz ”Bulaq” verilişinin bir neçə sayının mətnləri yer alıb. SİA xəbər verir ki, kitabın redaktoru Soylu Atalının bildirdiyinə görə, Tahir Talıblının əsrarəngiz şeirləri eyni zamanda, özünə xas üstünlükləri olan, həmçinin həyat anlamı ilə yüklü şeirlərdir.

Eləcə də bütün dövrlərimizin həvəslə dinlənildiyi ”Bulaq” mətnləri xalq ruhunun, milliliyin incilərini, elmi qavramlarını sağlayan, cəlb edən düzəydədir. ”Bununla bağlı Tahir müəllimi qutlayıram, uğurlar diləyirəm. Bu kitabın araya gəlməsində bizim də qatqımız olduğu üçün soydaşlarımızla saygılarımızı paylaşmaqdan sevinc duyuruq”, deyə Soylu Atalı qeyd edib.

Tahir Talıblının bu günə kimi ”Sevgi harayı”, ”Yazılmamış şerlər”, ”Yollara çıxmışam”, ”Bizi yurd saxlar” , ”Bu tale dediyin”, ”Qurdu qəmgin quşu qərib ” şeir kitabları işıq üzü görüb.




YENİ NƏŞR

Əməkdar jurnalist Tahir Talıblının şah əsərlərindən biri də dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevə həsr etdiyi kitabıdır. Daha dəqiq desək, 1997-ci ildə nəşr edilmiş ”Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti ” kitabında Əziz Əliyevin böyük təşkilatçı, görkəmli dövlət xadimi olması ilə yanaşı, həm də qayğıkeşliyi və s. mühüm cəhətləri barədə fikirlər yer almaqdadır. Tahir Talıblıya ünvanlanmış məqalələrin də kitabda yer alması kitaba xüsusi çəki verir. Onun ”Əziz Əliyev, dövrü, həyatı, şəxsiyyəti” kitabı barəsində məqalə yazmış Əsgər Zamanovun fikirlərinə nəzər saldıqda böyük bir zəhmətin şahidi oluruq: ”Müəllif bu kitabı yazmaq üçün Bakının, Mahaçkalanın arxivlərində axtarışlar aparmış, xeyli sənədlərə baxmış, istifadə etmiş, Əziz Əliyevlə təmasda olmuş müxtəlif peşə adamları və qohumları ilə görüşmüş və sanballı bir əsəri ərsəyə gətirmişdir”.

Tahir müəllimin ”Vaxt vaxtında gəlir ” kitabı da öz möhtəşəmliyi ilə seçilir. Bu kitab sanki illər əvvəl indiki zamanımızdan bəhs edir və qədəm qoyduğumuz Türk Əsrinin mesajlarını hələ o zamandan verir. Xatırladaq ki, Tahir Talıblı sayca 9-cu olan ”Söz söz olunca ” kitabını oxuculara fevral ayında 75 illik yubileyi ərəfəsində etməyi planlaşdırıb. Qeyd edək ki, Tahir Talıblı əslən tarixi Qərbi Azərbaycanımızın Cəlaloğlu rayonunun Loru mahalında anadan olub. O, eyni zamanda, ssenari müəllifi, film üzərində işləyən, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

***Rövşən RƏSULOV***



**Təhmasib Novruzov**

# 2023-ün dünyası və yaxud dünyanın 2023-ü

**2023-cü il həyatımıza qədəm qoyandan dünyanın bütün ölkələrində olduğu kimi bizim məmləkətdə də siyasilər və özünü siyasətçi hesab edənlər müxtəlif məzmunlarda proqnozlar verirlər. Çox düşünüb-daşındım, axırda qərara gəldim ki, mən də oturum, 2023-cü illə bağlı bir-iki cümlə quraşdırım. Kimdən əskiyəm ki?**

Proqnozlar bir yana, bəzən qınayıcı tərzdə deyirlər ki, gərək biz Laçın-Xankənd yolunda aksiyadansa, antiterror əməliyyatına başlayaydıq. Və sonra da bu il mütləq bu əməliyyatın gerçəkləşməsinin vacibliyini qeyd edirlər. Bir başqası da hay salır ki, İrandakı vəziyyətdən istifadə edib, qərbin də İranla münasibətlərinin gərginləşdiyi bir zamanda Güney Azərbaycanın problemini həll etmək lazımdır. Hələ bir az da irəli gedib ”Rusiyaya da yerini göstərməliyik” deyənlər də var. Qəminiz kəm, deyirsiniz deyin, demokratiyadır, kim nə istəyirsə deyə bilər.Amma bu dediklərinizi özünüz aksioma kimi qəbul etsəniz də, başqalarına zorla qəbuletdirmək istəyinizdən vaz keçməyiniz məsləhətdir. Mən də bir Azərbaycan türkü olaraq dediklərinizin hamısının dərhal həll olunmasını çox istəyərdim. Amma biz nağıllar dünyasında yaşamırıq ki, şüşədən çıxan bir cin hamısını göz qırpımında həll eləsin. Məsələn, qərbin İranla bağlı son bəyanatlarına inanıb da, güneyli qardaşlarımıza açıq dövlət dəstəyi, hətta silahlı dəstək verməyimizin vacibliyindən danışanlar, hələ də bilmirlərmi ki, tarix boyu Azərbaycan türklərinin ərazisində İran-fars dövlətini yaradan və hakimiyyət dəyişsə də münasibətini dəyişməyən elə qərb özüdür? Aralıq dənizindən Yapon dənizinə qədər avrasiya materikini ikiyə bölən türk dünyasının ortasında erməni və fars layihələrini yaradan qərb, bu regionda istədiklərinə nail oldumu ki, yaxud istəklərindən vaz keçdilərmi ki, İranın parçalanmasına dəstək versinlər? İslam dünyasını ikiyə bölmək siyasətini uğurla icra edən molla rejimindən qərbin belə asanlıqla əl çəkməsini düşünmək sadəlövhlükdür. Bəzi qərb dövlətləri sadəcə mır-mır edir ki, burda vəziyyəti daha da qızışdırsın və bölgədə daha bir qaynar ocaq yaradılsın.

Yaxud, Ukraynada başı nə qədər qarışır-qarışsın, Qafqazı nəzarətindən buraxmağın özü üçün nə demək olduğunu yaxşı bilən Rusiyanın ”Sülhməramlı” adlanan qüvvələrinin başı üstündən Qarabağda anti-terror əməliyyatı keçirməyin necə nəticələr verə biləcəyini də düşünmək gərəkdir. Əminəm ki, məqamı və vaxtı yetişəndə bu addım atılacaq və həllini də tapacaq. Ancaq siyasət gecikməyi sevmədiyi kimi, tələsməyi də sevmir axı!..

Labirintləşmiş dünyadan baş çıxarmaq nə qədər çətin olsa da, bu labirintin bir halqasına çevrilməmək üçün gərək səbr və təmkini əldən verməyəsən. Kimlərsə düşünə bilər ki, ABŞ da, qərb dövlətləri də İranın və Rusiyanın tezliklə parçalanmasını istəyirlər. Mənim proqnozum isə bunun əksini deyir. Deyim, görün ağılabatandı, yoxsa yox! Rusiyada federasiyanın parçalanması nəticəsində yaranacaq yeni dövlətlərin əksəriyyəti hansı xalqa məxsusdu? Çox doğru dediniz. O zaman indi Aralıq dənizindən Altay diyarına qədər uzanan türk birliyi gedib çıxacaq Yapon dənizinə kimi, şimalda da buzlu okeanın buz dağlarına qədər!

Görəsən ABŞ və Qərb dövlətləri bunu istəyirmi? Eynilə də İran parçalanarsa, böyük turanın ortasında süni yaradılan İran ərazisindəki türk xalqlarının azadlığa çıxması, bu birliyin quru torpaqlarda da birliyini təmin edir. Bunu necə, istəyirmi qərb? Ötən əsrin əvvəllərində Rusiyaya da güzəştləri buna görə etmədimi qərb dövlətləri? İndi necə ola bilər ki, yüz il sonra qərb birdən-birə türkün birliyində bu qədər maraqlı oldu? Mən siyasətçi-flan deyiləm, amma bu dediklərimi idrak etmək üçün siyasətçi olmaq vacib deyil. Sadəcə, keçmişdə baş verənləri bilmək və bu gün baş verənlərlə müqayisə etmək kifayətdir. Mənim də bu müqayisədən gəldiyim qənaət budur.

Bir sözlə, deyəsən labirintin ilgəyi tapılmayacaq və tapılmasa qiyamət qopacaq. Əslində Ukrayna-Rusiya savaşı adlandırılan, reallıqda isə dünya güclərinin savaşına çevrilən hadisənin özündə qiyamətin bəzi əlamətləri görünməkdədir. Hələ yaxın, orta və uzaq şərqdə, afrikada, cənubi amerikada baş verənləri demirəm. İş o yerə çatıb ki, dünənə kimi nüvə silahının əleyhinə olan İran, Cənubi Koreya kimi dövlətlər də nüvələşməyə doğru addımlarını böyütməkdədirlər. Yəni deməyim odur ki, biz nə qədər nüvəsiz dünya arzulasaq da, bunun əksi baş verməkdədir. Görünən odur ki, 2023-ün dünyası nüvə silahı yaratma yarışının güclənməsi ilə yadda qalacaq. Dünyanın 2023-ü bu baxımdan bəşəriyyətə yaxşı nəsə vəd etmir. Böyük şairimiz Bəxtiyar Vahabzadə demişkən,

*Bir tükdən asılıb taleyi indi,*
*İnsan əməlinə kaş döz'ə dünya!*

Ölkəmizə, türk dünyasına qayıtsaq, narahat olmağa əsas yoxdu. Yetər ki, nə tələsək, nə də gecikək!.. Bu təmkiimiz sayəsində son 20 ildə Azərbaycan çox olmazları oldurub, çox xəyalları gerçəyə çevirib. Ən vacibi labirintin içindən ilgəyi tapıb rahat yola girən məmləkətimizi yenidən labirintə soxmamaqdır. O zaman nəinki gözlədiyimiz, hətta gözləmədiyimiz çox nailiyyətlərimiz olacaq, inşaallah!

# Rusiyalı ekspert: **Moskvanın Ermənistana qarşı səbri tükənir**

## Aleksey Fenenko: "Paşinyanı hakimiyyətə Qərb gətirib, indi baş nazirdən borcunu ödəməyi tələb edirlər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Ermənistanın son vaxtlar yürütdüyü siyasət Moskvanın ciddi narazılığına səbəb olub. Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko "Moskva-Bakı" portalına müsahibəsində vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Aleksey Valeryeviç, Rusiya Xarici İşlər Nazirliyi rəsmisinin Ermənistanın baş nazirinin səsləndirdiyi tezislərlə bağlı açıqlamalarına əsasən, Moskvanın səbri tükənib...***

- Görünür, Ermənistan Moskva ilə yaxşı münasibət qurmaq və Azərbaycanla dövlətin rifahının inkişafına imkan verən konstruktiv dövlətlərarası münasibətlər qurmaq istəmir. Ermənistanın erməni hakimiyyəti və onların Qərb kuratorlarının başqa məqsəd və vəzifələri var. Və onları həyata keçirirlər.

Moskva uzun müddət idi ki, Ermənistanda hakimiyyətə Rusiya ilə münasibətləri yaxşılaşdıracaq siyasətçinin gələcəyinə ümid edirdi. Bu cür hesablamalara Rusiyanın ekspert icması kömək etdi, onların bir çoxunda belə bir fikir formalaşdı ki, anti-Rusiya addımları, müxtəlif vaxtlarda respublikaya rəhbərlik etmiş Ermənistan liderlərinin bəyanatları-Sarkisyanın Qərbə tərəddüd etməsi və ya açıq desək Paşinyanın anti-Rusiya siyasəti- bütün erməni xalqının fikrini əks etdirmir. Digər ekspertlər Rusiyanın arxalana biləcəyi "Qarabağ klanı", digərləri isə Ermənistanda Rusiya Federasiyası ilə münasibətləri yaxşılaşdırmaq istəyən siyasətçilərin olduğunu bildiriblər. Əslində, bunu Rusiya siyasi dairələrində və ekspert cəmiyyətində onilliklər ərzində mövcud olan nağıldan başqa bir şey adlandırmaq olmaz.

İndi deyirik - Paşinyan pisdir, Paşinyan Rusiya əleyhinə addımlar atır. Bəs belə siyasət yalnız Paşinyanın dövründə aparılıb? Serj Sarkisyanın dövründə Ermənistanla Avropa İttifaqı arasında assosiativ saziş imzalanıb, onun dövründə Ermənistanla NATO arasında qarşılıqlı fəaliyyət proqramı daim genişlənirdi. Bu tendensiyalar Sarkisyanla birlikdə Qarabağ münaqişəsinin inkişafına böyük töhfə verən Robert Köçəryanın dövründə başlayıb. Ona görə də mən deməzdim ki, Moskva ilə münasibətlərdə əvvəlki erməni siyasət "ənənələrini" məhz Nikol Paşinyan kökündən pozdu.

Bu gün Moskvanın İrəvanın bəyanatlarına və hərəkətlərinə münasibəti Rusiya hakimiyyətinin Ermənistanın anti-Rusiya təsir aləti olduğunu başa düşməsinə dəlalət edir.

Moskva da üçtərəfli bəyanatı imzalayan Paşinyanın onu yerinə yetirəcəyinə ümid edirdi. Ümidlər var idi ki, İkinci Qarabağ müharibəsi onun gözünü açdı, indi Paşinyanın Moskvadan başqa müttəfiqi yoxdur. Ermənistanın hazırkı baş nazirinin Rusiya və KTMT ilə münaqişənin genişləndirilməsinə gedəcəyinə az adam inanırdı.





Ermənistan Rusiyanın səbrini daşırıb

***- Ermənistanın addımları, bəyanatları təkcə Ermənistan-Rusiya münasibətlərinə deyil, həm də Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesinin gedişinə zərbə vurur.***

- Və Rusiyanın imicinə. Axı Ermənistan da, Qərb də iddia edir ki, Moskva sülhməramlı missiyasının öhdəsindən gəlməyib. Buna görə də İrəvanın bəyanatları Rusiyanı tənqid edir ki, o, Qarabağ ermənilərinin təhlükəsizliyinin təminatçısıdır və Azərbaycan guya "soyqırımı" təşkil etmək istəyərkən heç nə etmir. Halbuki, belə bir şey yoxdur. Qərb tərəfdaşlarının regiona gəlməsinə yol açmaq üçün Ermənistan qalmaqal yaratmalıdır. Və yavaş-yavaş içəri daxil olurlar.

İş o yerə gəlib ki, Nikol Paşinyan açıq şəkildə Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasını tələb edir. O, artıq birmənalı olaraq buna eyham vurur, deyir ki, onlar işinin öhdəsindən gəlmirlər, Qarabağa beynəlxalq missiya göndərməsi məsələsini BMT Təhlükəsizlik Şurasında qaldırmağı təklif edirlər. Bu, cəfəngiyyatdır.

***- Ermənistanda revanşist millətçilər yenidən fəallaşıblar. Onlar son günlər Gümrüdəki Rusiya hərbi bazasını və İrəvandakı Rusiya səfirliyini mühasirəyə alıblar.***

- Əgər Ermənistan İkinci Qarabağ müharibəsində məğlub olduqdan sonra ilk aylarda revanşçılar "Paşinyan rədd olsun" deyə qışqıraraq ona alternativ tapmağa çalışırdılarsa, Ermənistanın indiki baş naziri onları sırf Qərbin köməyi ilə əslində müharibəyə və qisas almağa hazırlaşdığını gizləmək üçün üçtərəfli bəyanat imzaladığına inandıra bildi. İndi baş nazirin üçtərəfli bəyanat imzalamasından iki il sonra revanşistlər məsələ qaldırmağa başladılar ki, əslində, aktiv aksiyalar hardadır, bu hazırlıq haradadır, gəlin qəti addımlar ataq.

***- Kreml Ermənistanın yaxın müttəfiq olduğunu deyir. Bu, həssas bir məsələyə diqqətli münasibətdirmi?***

- Rusiya Ermənistanı itirmək istəmir və bütün məsələləri dəqiq həll etməyə çalışır. Müttəfiqdir, bəli, amma o qədər də yaxın deyil. NATO-nun saytına daxil olub Ermənistanın alyansla hərbi proqramlarının siyahısına baxmaq kifayətdir. Ermənistanın Rusiya ilə həmrəylikdən çıxış edib bu proqramların sayını azaltması haqda heç nə eşitməmişəm.




***- Paşinyan niyə keçən il anti-Rusiya meyillərini aktivləşdirdi?***

- Bu, Rusiya ilə Qərb arasında gərginləşən münaqişə fonunda əlverişli oldu. Xatırladaq ki, Paşinyan Ermənistanda hakimiyyətə Qərbin köməyi ilə gəlib. Qərb niyə onun hakimiyyətə gəlməsini dəstəklədi? Qərb heç nəyi havayı yerə etmir. Bunu xüsusi ehtiyaclar üçün etdi. Bunlar lazımdır- bu, anti-Rusiya siyasətinin aparılmasıdır. Əslində Paşinyanı Qərb bunun üçün təyin etdi və indi indiki baş nazirin köhnə borclarını ödəmək vaxtı çatıb.

***- Paşinyanın həm təxribatçı bəyanatları, həm də Fransa və Aİ-nin hərəkətləri Qarabağdakı vəziyyətə kəskin mənfi təsir göstərə biləcəkmi?***

- Əlbəttə, təsir edə bilər. Paşinyan Qərb tərəfdaşlarına dəstək verən bəyanatları və hərəkətləri ilə regionda hərbi münaqişəyə səbəb ola bilər. Amma başa düşmür ki, bu müharibədə mütləq uduzacaq.

İrəvanın Rusiya-Ermənistan münasibətlərinə, eləcə də Cənubi Qafqazda sülhə mənfi təsir göstərən bu cür siyasəti fonunda Moskva ilə Bakı daha da yaxınlaşacaq. Üçtərəfli bəyanatda nizamlanmadakı bütün ssenarilər öz əksini tapıb. Yeni bir şey icad etməyə ehtiyac yoxdur, sadəcə onları həyata keçirmək kifayətdir. Ermənistan tərəfi üçtərəfli bəyanatı həyata keçirmək və bu məsələ ilə bağlı hər hansı danışıqlar aparmaq istəmədiyini açıq şəkildə göstərir.

Sonda hər şey Azərbaycanın Rusiyanın razılığı ilə Qarabağın qalan hissəsini hərbi yolla qaytarması ilə bitəcək. Əgər Paşinyan artıq Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasına meyl edirsə, o zaman bu, Rusiya sülhməramlılarının Qarabağdakı missiyasının 2025-ci ildə başa çatmasına qədər də baş verə bilər.

***- Bu yaxınlarda Əliyev və Paşinyan mətbuat konfransları verdilər və Azərbaycan prezidenti bildirdi ki, bu il Ermənistan tərəfi üçün Azərbaycanla sülh üçün son şans olacaq. Bu bəyanatı necə şərh etmək olar?***

- Çox sadədir ki, Ermənistan bütün imzalanmış sazişləri sabotaj etməkdə davam edərsə, o zaman Bakı da bu sazişlərdən çıxa bilər ki, bu da münaqişənin yenidən başlanması deməkdir.

Əliyevin mətbuat konfransında açıqladığı kimi, üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycanın həyata keçirdiyi bir çox hərbi əməliyyatlar, ümumilikdə, Rusiya tərəfindən təmkinlə qarşılanıb. Rusiya qəti şəkildə buna qarşı deyildi. Bu ona görədir ki, Ermənistan əsas təxribatçıdır və üçtərəfli sənədin imzalanmasından sonra hərbi münaqişənin yeni mərhələlərini təhrik edən məhz odur.

Azərbaycan bu gün güclü mövqedən oynayır. Əliyevin müsahibəsi bunu bir daha göstərdi. Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qələbəsi onun siyasi kapitalına çevrilib və bundan öz milli maraqlarını reallaşdırmaq, regionda mövqelərini gücləndirmək baxımından istifadə etməyə çalışır.

***- Əliyev bildirdi ki, Avropa danışıqlar platforması deaktivdir. Niyə Fransa və Aİ vaxtaşırı Bakıya qarşı çıxış edirlər? Özü də, Azərbaycandan qaz tədarükü baxımından ən mühüm tərəfdaş kimi danışmağa və onunla çoxlu sayda müqavilələr bağlamağa mane olmur.***

- Qərbdə Ermənistanı Cənubi Qafqazda öz platforması kimi almaq, Rusiyaya qarşı yerləşdirmək istəyirlər, bu yolda onlar üçün bütün vasitələr yaxşıdır. Ona görə də Qərb əlbəttə ki, Azərbaycanla oynamayacaq. Qaz müqavilələrinin imzalanması isə- onlar gözləyirlər ki, nizamlanmada Bakının tərəfindən obyektiv olaraq ədalətlə oynamasalar belə, Azərbaycanın hələ getməyə yeri qalmayacaq və onsuz da Avropaya qaz verəcək. Əminəm ki, Avropada onlar həddən artıq lovğadırlar və özləri haqqında çox yüksək fikirdədirlər, lakin Azərbaycandan daha bir dərs alacaqlar.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
17 yanvar
2023-cü il



# Markus Reşford rekorda imza atıb

İngiltərə Premyer Liqasının 20-ci turu çərçivəsində keçirilən "Mançester Siti" ilə oyun "Mançester Yunayted"in hücumçusu Markus Reşford üçün əlamətdar olub. SİA xəbər verir ki, o, bu görüşdə komandasının qələbə qolunu vurmaqla yanaşı, yeni rekorda da imza atıb. Belə ki, 25 yaşlı futbolçu indiyədək yerli çempionatda 67 dəfə rəqib qapılarına yol tapıb. Markusun bu qollarından 27-si, yəni 40,3 faizi qələbə qolu olub. Belə göstərici Premyer Liqa tarixində 50-dən çox qol vurmuş futbolçular arasında rekord nəticədir. Qeyd edək ki, "qırmızı şeytanlar" Mançester derbisində (2:1) əzmkar qələbə qazanıb. Bu nəticə ilə xal hesabını 38-ə çatdıran "Mançester Yunayted" turnir cədvəlində 3-cü pilləyə yüksəlib.



# Bakıda avtomobildən "Kalaşnikov" götürülüb

**Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan Azad Aslanov saxlanılıb.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, onun üzərindən və Maştağa qəsəbəsində yerləşən evindən 3 kiloqrama yaxın heroin aşkar olunub. Azad Aslanov narkotk vasitələri satmaq məqsədi ilə əldə etdiyini bildirib. Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdikləri daha bir əməliyyat zamanı idarə etdiyi avtomobildə qanunsuz olaraq odlu silah-sursat saxlayan şəxs tutulub. Əməliyyat zamanı Rəşad Rəşidov Bilgəh qəsəbəsi ərazisində saxlanılıb və onun idarə etdiyi "VAZ 21014" markalı avtomobilə baxış keçirilib. Nəqliyyat vasitəsinin yük yerindən həmin şəxsə məxsus 1 ədəd "Kalaşnikov" markalı avtomat, sandıqça və 3 ədəd patron aşkar olunub. Faktlarla bağlı Sabunçu Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir.



# Zeytun yağı dərimizə necə təsir edir?

Zeytun yağı insan bədəninin demək olar ki, hər yerində fərqli faydalar təmin edir. Ən çox fayda verdiyi sahələrdən biri də şübhəsiz dəridir. Bəs zeytun yağının dərimizə nə kimi faydaları var? Zeytun yağı dəridə bir çox fərqli şəkildə istifadə edilə bilər.

**Nəmləndirici serum:** Gecə yatmazdan əvvəl zeytun yağını birbaşa təmizlənmiş dərinizə çəkin. Yuxudan oyandığınız zaman dərinizin sağlam bir parlaqlıq və yumşaqlıq qazandığını görəcəksiniz.

**Üz üçün tonik:** Yarım çay stəkan zeytun yağı, dörddə bir çay stəkanı sirkə və dörddə bir çay stəkan suyu qarışdırıb yatmazdan əvvəl tonik olaraq üzünüzə çəkə bilərsiniz.

**Göz kremi:** Sərbəst radikallarla mübarizə aparan zeytun yağını da göz kremi kimi istifadə edə bilərsiniz. Gecə yatmazdan əvvəl gözlərin altına və incə xətləri olan nahiyələrə bir az zeytun yağı sürtməklə daha yumşaq bir dəriyə sahib ola bilərsiniz. Gözünüzün altında şişlik probleminiz varsa, soyuducuda saxladığınız zeytun yağını təbii həll yolu kimi şişkin nahiyələrə çəkə bilərsiniz.

***Banuçiçək Hüseynli***

# Şahzadələr arasında davanın səbəbi nə olub?



Şahzadə Harri qalmaqallı memuarında qardaşı Uilyamla nahamar münasibətlərindən yazmasından sonra yenidən gündəmə gəlib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Böyük Britaniyanın kral sarayındakı mənbə şahzadələr arasındakı ədavətin kökləri barədə gümanını bölüşüb.

O qeyd edib ki, uşaq olarkən dayə hər zaman Harriyə Uilyamdan daha az yemək verirmiş. "Mən indi keçmişə nəzər salanda bəzi şeyləri xatırlayıram. Məsələn, yadıma gəlir ki, günlərin birində səhər yeməyi zamanı dayə Uilyama 3 sosis versə də, Harriyə cəmi 2 sosis yedizdirdi. Harri bunun səbəbini soruşub narazılıq edəndə, dayə ona qardaşının daha çox yeməli olduğunu demişdi. Dayə "çünki o kral olacaq və buna görə də o daha çox yeməlidir" cavabını vermişdi", - deyə mənbə bildirib. Onun sözlərinə görə, Harrinin Uilyama qarşı pis münasibəti belə şeylərdən qaynaqlanır.



# Yaşıl çay piylənmənin qarşısını alır

**Pəhriz və fiziki məşğələlər arıqlamaq üçün ən səmərəli tədbirlərdir, lakin təbii otlardan hazırlanmış çaylar sağlamlıq üçün geniş spektr üstünlüklərə görə həm Şərq, həm də Qərb ölkələrində əhəmiyyətli funksional dərman hesab edilir. Onların bir çox keyfiyyətləri sırasında - diabet kimi metabolik sindromların qarşısının alınması üçün faydalı hesab edilən piylənməyə təsiridir.**

Bəzi tədqiqatlar göstərir ki, yaşıl çayın visseral piyə qarşı faydası əlavələrin qəbulundan sonra artıq bir neçə həftədən sonra özünü göstərə bilər.

"Yarpaqlı göyərti, yaşıl çay və rəngli tərəvəzlər şişkinliyi azaltmağa və piysaxlama genlərinin qarşısını almağa kömək edə bilər. Bu barədə "Medik-Forum" saytı məlumat yayıb. Məlumatda deyilir ki, yaşıl çayın qəbulu visseral piyləri azaldır.

Bu effektlər əsasən yaşıl çayın üstün antioksidant tərkibi ilə izah olunur. Ümumilikdə, 118 iştirakçı hər gün tərkibində 609,3 mq katexin və 68,7 mq kofein olan içkini və ya 12 həftə ərzində nəzarət içkisini qəbul ediblər. Hər bir subyektin 0, 8 və 12-ci həftələrdə qarın piy sahəsi, bədən çəkisi və tərkibi ölçülüb.

"Katexinlə zənginləşdirilmiş yaşıl çayla müalicə nəticəsində qarın visseral piy sahəsi, bədən çəkisi və bədən piyləri əhəmiyyətli dərəcədə azalıb, lakin bu təsirlər nəzarət qrupunda müşahidə olunmayıb".

Bundan başqa, 12-ci həftədə nəzarət qrupu ilə müqayisədə visseral piy sahəsinin əhəmiyyətli dərəcədə azalması müşahidə olunub.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**